

## Əli Əsədovun sədrliyi ilə gələn ilin büdcəsi müzakirə olundu

*Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetinin Azərbaycan Respublikasının 2023-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin, Azərbaycan Respublikasının 2023-cü il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunan geniş iclası keçirilib.*

Səh.3

# UNİKAL

№35 (2120) 23 sentyabr 2022-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev www.unikal.org unikal-1@mail.ru

# Ermənistana son xəbərdarlıq:
## “Legitim obyektlər darmadağın ediləcək”



Səh.9



# Ceyhun Bayramovdan sərt reaksiya

## Nazir: "Revanşistlərə "nəfəs verilməsi" siyasi məsuliyyətsizlikdir"

*“Belə həssas bir məqamda, kövrək sülhün əldə edilməsi şansı varkən əsassız iddialar səsləndirilərək revanşistlərə “nəfəs verilməsi” siyasi məsuliyyətsizlikdir. Bunu başqa cür adlandırmaq çətindir”. ”Unikal” xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov “Real TV”yə müsahibəsində deyib. O bildirib ki, müxtəlif ölkələrin ikili standartları adətən həmin ölkələrdəki seçkilər ərəfəsində özünü büruzə verir. C.Bayramov vurğulayıb ki, həm Fransada, həm ABŞ-da, çox böyük erməni lobbisi var.*

Səh.2

## “Durğunluq dövrünə qədəm qoymaq üzrəyik, bu da ciddi fəsadlar törədə bilər”



*REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli ”Unikal”a müsahibə verib. O, maaş və pensiyaların nə qədər artırıla biləcəyindən, Bakıda müşahidə olunan sıxlıqdan, Rusiya-Ukrayna müharibəsindən və başqa məsələlərdən danışıb.*

Səh.4

## Tağı Əhmədovun 3 milyon manatlıq rüşvəti ilə 150 manatlıq şokoladın əlaqəsi...



*Yola salmaq üzrə olduğumuz həftə ölkə mediası Bakı şəhəri, Nizami rayonunda yerləşən OBA marketdən 150 manat dəyərində şokolad oğurlayan şəxslə bağlı məhkəmə qərarı verildiyini açıqladı. Bildirildi ki, məhkəmə prosesinə ”Bakı Metropoliteni” QSC-nin keçmiş rəisi Tağı Əhmədovun oğlu...*

Səh.8

## "Artıq pandemiyanın sonuna yaxınlaşırıq" - Teymur Musayev



*”Azərbaycanda yetərincə vaksin var. Bu günə qədər heç bir peyvənd vurdurmayan şəxsləri vaksinasiyadan keçməyə çağırıram”. ”Unikal” xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev jurnalistlərə açıqlamasında deyib. Nazir Azərbaycanda pandemiya ilə bağlı vəziyyəti də açıqlayıb:*

Səh.10

# Aysunla Eşqin ayrılıb?




***Müğənni Rəqsanə İsmayılovanın qızı Aysun İsmayılova son günlər sosial şəbəkədəki paylaşımları ilə diqqət çəkib.***

Aysunun ayrılıq paylaşımları onun həyat yoldaşı Eşqin Cəlilovla boşanmağa hazırlaşması məlumatlarının yayılmasına səbəb olub. Bu gün isə Aysun "Kitabın son səhifəsi belə bitirdi: O, ilk gördüyü, tanıdığı, güvəndiyi, sevdiyi insan deyildi artıq. Sevən yanılmış, sevilən yad olmuşdu" sözlərini yayımlayıb. İfaçı daha sonra "Artıq çox şey üçün çox gec" sözlərini yayımlayıb.

Axşam.az-ın əldə etdiyi məlumata görə, bu günlərdə onları birlikdə verilişə dəvət ediblər. Amma Aysun və Eşqin birlikdə proqrama qatılmaqdan imtina ediblər.

Eyni zamanda Aysun Eşqini izləmədən çıxarıb və birlikdə olan fotoların silib. Eşqin də eyni addımı atıb.

Qeyd edək ki, Aysun və Eşqinin toyu iyunda olub.

# "Sonda insana yenə də ailəsi qalır, ailənizi qoruyun" - Almaz Ələsgərova

***"44 günlük zəfərdən sonra torpaqlarımızı işğaldan azad etdiyimiz üçün çox sevincli idik. Bircə şəhidlərimizə görə çox üzülürdük. Təbii ki, müharibə həm də itki deməkdir. Hamının ailəsindən, nəslindən şəhid olanlar oldu. Bu günlərdə ölkəmizin başını yenə də qara dumanlar aldı. Yenə də şəhid verdik, yenə də övladlar atasız, analar övladsız qaldı. Biz şəhidlərimizi heç vaxt unutmamalıyıq. Onları hər zaman qəlbimizdə yaşadıb, adlarını yadımıza salacağıq. Qəhrəmanları yaşatmaq lazımdır. İstər filmlərdə, istər teatr tamaşalarında, istərsə də mahnılarda. Şəhid analarının qarşısından baş əyirəm. Onlar həqiqətən də çox iradəli və möhkəm xanımlardır. Şəhidlər həm də bizim balalarımızdır, tək onların deyil"***



"Unikal" xəbər verir ki, bunu moderator.az-a açıqlamasında tanınmış müğənni, əməkdar artist Almaz Ələsgərova deyib. O daha sonra 6 ildir ki, Akademik Musiqili Teatrda çalışdığını bildirib.

"Uşaqlıqdan oxumağı sevmişəm, amma oxumaqla bərabər həmişə evdə aktrisalıq edirdim. O məndə uşaq yaşlarından var idi. Universitetin birinci kursunda oxuyanda məni Musiqili Komediya Teatrına qəbul etdilər. Əsas rollardan birini oynayırdım. 2 ilə yaxın teatrda çalışdım. Daha sonra teatrı tərk etdim. Yəqin ki, bu da mənim cavanlığımdan irəli gəlirdi. Üz tutdum Mahnı teatrına. Rəşid Behbudov mənə sənətdə həm dəstək oldu, həm də təkan verdi. İndiki vaxtda isə musiqiyə daha çox bel bağlamıram, yenidən teatrı seçdim. Teatr mənim üçün hər şeydir. 6 ildir ki, artıq teatrdayam. Bizim teatrda hamı bir-biri ilə mehribandır" deyə müğənni bildirib.

Almaz Ələsgərli daha sonra nənəlik sevincini bizimlə bölüşüb. "Nənəlik gözəl hissdir, Allah hamıya qismət etsin. Nənəyəm, bununla da qürur duyuram. Bəzən cəmiyyətə baxıram. Sonda insana yenə də qalan ailəsi olur. Ailənizi qoruyun. Çünki balalar sənə, sən də onlara qalırsan. Hər şey boşdur bu həyatda. Övladları elə tərbiyə etmək lazımdır ki, sabah biz qocalanda yalnız onlara möhtac olanda, onlar da bizə baxsınlar" deyə müğənni bildirib.



# "Cahillər, qadın Allahın əmanətidir" - Günel Zeynalova

***Müğənni Günel Zeynalova şəhidlərimizlə bağlı paylaşım edib.***

Sənətçi paylaşımında "Allah əsgər qardaşlarıma rəhmət eləsin. Analarımıza səbir versin. Dünyada dönən fəlakətlər sonlansın. Qiyamətə doğru" sözlərini yazıb.

Sənətçi eyni zamanda ifa etdiyi mahnını da yerləşdirib.

Günel daha sonra "Dünya öz oxundan çıxıb. Bu necə bir rahatlıqdır, insan canı necə belə rahat alınır? Qadınlar Allahın əmanətidir - bunu bilməyən cahillər. Allaha da inanmırsınız? Sizi yaradan kimdir? Yaradan yaratdı, amma ən böyük cəzanı yaşamağınızı diləyirəm.

Müharibə... Əsgərlərimiz, qardaşlarım, analarımız... Cənnət anaların ayaqları altındadır. Necə canları yanır, amma "Vətən sağ olsun" deyirlər" sözlərini əlavə edib.

# "Kimyaterapiyalara bədən dözmür..." - Toppuş bacı



***Xərçənglə mübarizə aparan əməkdar artist Tünzalə Əliyeva (Toppuş bacı) səhhətindəki son vəziyyət haqqında danışıb.***

"Unikal" teleqraf.com-a istinadən bildirir ki, Toppuş bacı kimyaterapiyalarının davam etdiyini deyib:

"Kimyaterapiyalar davam edir. Həftəlik və 21 gündən bir fərqli iki kimyaterapiya qəbul edirəm. Sabah yenə xəstəxanaya gedəcəm. Səhhətimə gəlincə, buna da şükür. Bəzən kimyaterapiyalara bədən dözmür, amma yenə də şükür edirik. Ümidlə irəli gedirik". Qeyd edək ki, aktrisa Milli Onkologiya Mərkəzində müalicə alır.

# Elnarə həyat yoldaşından ayrı qalmasından yazdı

***Müğənni Elnarə Xəlilova həyat yoldaşı, Dövlət Sərhəd xidmətinin zabiti, mayor Rövşən Cahangirovla bağlı paylaşım edib.***

Sənətçi övladlarının hazırda cəbhədə olan atalarının yolunu səbirsizliklə gözlədiyini vurğulayıb: "Allah bütün evləri atalı, analı eləsin, inşallah. Atanın yolunu səbirsizliklə gözləyənlərin hamısını Allah arzularına çatdırsın. Bütün atalar evlərinə sağ-salamat qayıtsınlar. Bizimki də onun içində. Amin".

Xəlilovanın yayımladığı videoda oğlu yer alıb.

Qeyd edək ki, Rövşən və Elnarə cütlüyünün 4 övladı var.





## Ermənistanın son təxribatları dünya mediasında

***Dünyanın bir çox kütləvi informasiya vasitələri Azərbaycanın dövlət sərhədində Ermənistanın törətdiyi genişmiqyaslı təxribatı ətraflı şəkildə işıqlandırmaqdadır.***

Dünyanın müxtəlif xəbər saytlarında yayımlanan məlumatlarda Azərbaycan diaspor təşkilatlarının rəhbərlərinin Ermənistanın növbəti hərbi cinayətini sərt şəkildə qınayan, Azərbaycan Prezidentini, xalqını və Silahlı Qüvvələrini dəstəkləyən bəyanatlarına və fikirlərinə yer verilib.

Ukraynadakı Azərbaycan diasporunun nümayəndəsi Hikmət Cavadov Ermənistanın növbəti təxribatını hərbi avantüra adlandırıb və Azərbaycan Ordusunun bu təxribata layiqli cavab verdiyini qeyd edib.

(//gordonua.com/blogs/hikmet-dzhavadov/odkb-ne-budet-voevat-na-storone-armenii-eto-eshche-odno-geopoliticheskoe-i-voennoe-porazhenie-rossii-1626125.html)

Hərbi ekspert İqor Korotçenko "Veçerniy Moskva"ya müsahibəsində bildirib ki, Azərbaycan sülh müqaviləsi imzalamağa hazır olsa da, Ermənistan tərəfi sülh müqaviləsini imzalamaq istəmədiyi üçün bu dəfə də Azərbaycanla sərhəddə təxribata əl atıb. O, iki ölkə arasında dövlət sərhədinin delimitasiya və demarkasiyasının aparılmasının zəruriliyinə də toxunub.

(//vm.ru/politics/995812-ceplyatsya-za-proshloe-pochemu-armeniya-ne-namerena-podpisyvat-mirnyj-dogovor-s-azerbajdzhanom?fbclid=IwAR14dpbhycffb_7geqpXHxag6l_uo-GQyh2lDbs1ajK5aLI-nGvgkJKSJ1E)

Türkiyə-Azərbaycan Dostluq Dərnəkləri Federasiyasının sədr müavini, İğdır Azərbaycan Evi Dərnəyinin rəhbəri Serdar Ünsal Ermənistanın Azərbaycanla sərhəddə törətdiyi sonuncu təxribatla bağlı bunları deyib: "Ermənilər bu gedişlə ağıllanmayacaq. Özləri də bilmədən oyuna gəlirlər".

(//www.haberler.com/politika/son-dakika-haber-igdir-da-ermenistan-in-azerbaycan-a-yaptigi-15285095-haberi/)

Ermənistanın təxribatı barədə məlumatlar uzaq Braziliya KİV-də də işıqlandırılıb, Ermənistanın hərbi təxribatının beynəlxalq hüququn norma və prinsiplərinə, eləcə də "Üçtərəfli Bəyanat"ın müddəalarına zidd olduğu qeyd edilib.

(//www.google.com/url?sa=D&q=//brasiliainfoco.com/processo-de-paz-entre-armenia-e-azerbaijao-esta-em-jogo/&ust=1663834080000000&usg=AOvVaw3yHm-zcU1ehaYG_gPiUjzL&hl=en&source=gmail)

"ABŞ-Azərbaycan İnteqrasiya Mərkəzi" (USACI) İdarə Heyətinin Amerikada yaşayan Azərbaycan icması adından Texas ştatının rəsmilərinə ünvanlalan bəyanat ştatın informasiya portalında yayımlanıb, dünya ictimaiyyəti Ermənistanın təcavüzkar siyasətinə qarşı ölçü götürməyə çağırılıb.

(//texas.statenews.net/newsr/15769)

Yaponiya-Azərbaycan Dostluq Mərkəzinin təşəbbüsü ilə Yaponiyanın xəbər portallarından birində Ermənistanın növbəti hərbi təxribatını pisləyən bəyanat yayımlanıb.

(//ajmedia.jp/regardprovocation-of-the-armenian-army-12-september-2022/ )

Britaniyalı jurnalist Neil Uatsonun "Sərhəddə baş vermiş təxribatın əsas səbəbkarı Paşinyandır" adlı məqaləsində son hadisələr təhlil olunub, Ainin Azərbaycanla Ermənistan arasında danışıqlara vasitəçiliyindən bəzi xarici qüvvələrin hiddətləndiyi bildirilib.

(//ednews.net/en/news/politics/542041-pashinyan-main-factor-behind-the)

# Oqtay Şirəliyevin bir yanlışının çoxlu fəsadları

## Azərbaycandakı xəstəxanaların nə az, nə çox, düz 90 faizi özünümaliyyələşdirmədən əziyyət çəkirmiş

***Bir neçə gün öncə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin Strateji təhlil departamentinin rəhbəri Araz Nəsirov "Azərbaycanda icbari tibbi sığorta mexanizmlərinin gücləndirilməsi" tvininq layihəsinin açılışı zamanı maraqlı fikirlər səsləndirdi.***

"Hazırda xəstəxanalarımızın 90 faizi özünü maliyyələşdirməkdə çətinlik çəkir" deyən Nəsirov bildirdi ki, səhiyyənin keyfiyyətinin artırılması ilə bağlı layihə çərçivəsində mühüm işlər görüləcək: "Həm Səhiyyə Nazirliyinin, həm də İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sığortanın təşkili ilə bağlı tələbləri nəzərə alınacaq. Xidmət şəbəkəsinin təkmilləşdirilməsi ilə bağlı da tədbirlər görüləcək. Hazırda Azərbaycandakı xəstəxanaların 90 faizi özünü maliyyələşdirməkdə çətinlik çəkir. İstəyimiz xəstəxanaların mövcud resurslarının səmərəliliyini artıraraq gələcəkdə özünü maliyyələşdirəcək səviyyəyə çatdırmaqdır. Bu yöndə Avropanın hesablama modellerini öyrənmək istəyirik".



Qeyd edək ki, Azərbaycanda fəlaiyyət göstərən xəstəxanaların özünümaliyyələşdirmə problemi hələ sabiq səhiyyə naziri Oqtay Şirəliyevin zamanından aktual idi. Müstəqil ekspertlər nazirliyi bu istiqamətdə konkret addımlar atmamaqda günahlandırırdılar. Şirəliyev isə belə tənqid və ittihamlara özünəməxsus şəkildə - susmaqla "cavab" verirdi.

Halbuki Azərbaycanın səhiyyə sistemində islahatlar məsələsi hələ 1990-cı illərin sonları - 2000-ci illərin əvvəllərində müzakirə edilməyə başlamışdı. Lakin fakt orasındadır ki, Şirəliyev nazir olduğu uzun illər boyunca sözügedən islahatların sürətlənməsinə nail ola bilmədi, nəticədə dövlət tibb müəssisələrində keçmiş SSRİ-dən miras qalmış xidmət anlyışı öz mövcudluğunu böyük ölçüdə qoruyub saxladı.

Bu isə sabiq nazirin vəzifə dövrünün son illərində ortaya arzuedilməz mənzərənin çıxmasına rəvac verdi. Məsələn, Maliyyə Nazirliyinin 17 noyabr 2016-cı il tarixli məktubuna əsasən 2017-ci il yanvarın 1-dən "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin tibbi xidmət göstərən müəssisələri təsərrüfat hesabına keçmişdi. Bu səbəbdən özünü təmin edə bilməyən xəstəxanaların fəaliyyəti dayandırılmışdı.

Həmin vaxt Salyan Dəmir Yolu Xəstəxanasının bağlanması nəticəsində orada işləyən 40-a yaxın qadın işçi etiraz da eləmişdi. Onlar Astaradan Bakıya gələn 59 saylı sərnişin qatarının hərəkətini Salyan stansiyasında dayandırmış və işə bərpa olunmalarını istəmişdilər. Həmin vaxt mövzu ilə bağlı rəsmi açıqlamada deyilirdi ki, Maliyyə Nazirliyinin məktubuna əsasən bir sıra müəssisələrin maliyyələşdirilməsinin dayandırılması və onların özünü təmin etmə prinsipinə keçidi haqqında qərar qəbul edilib. Həkim və sanitar xidmətlərə vəsait ayrılmadığı üçün bəzi xəstəxanalar təsərüffat hesablı edilib, bəziləri is bağlanılıb: "Salyan Dəmiryol Xəstəxanasını da maliyyələşdirə bilmədiyimiz üçün bağladıq. Ona görə işçilər arasında belə ajiotaj yaranıb..."

Ümumiyyətlə isə o zaman "Azərbaycan Dəmir Yolları" QSC-nin rayonlarda 10 xəstəxana və tibb məntəqəsi bağlanmışdı. Bunlar Kürdəmir, Ucar, Lənkəran, Yevlax Dəmiryol Ambulatoriyası, Salyan Dəmiryol Xəstəxanası, Hacıqabul Dəmiryol Xəstəxanası, Mincivan Dəmiryol Xəstəxanası, Gəncə Dəmiryol Gigiyena və Epidemiologiya Mərkəzi, İmişli Gigiyena və Epidemiologiya Mərkəzi, Taun Əleyhinə Stansiya idi.

Rayonlarda fəaliyyət göstərən xəstəxana və məntəqələrin hər birində ən azı 60 ştat vardı və bunu nəzərə aldıqda yüzlərlə tibb işçisi işsizliklə üzləşmişdi.

Belə nümunələrin sayını artırmaq olar, lakin gərək görmürük. Elə yuxarıdakı örnək də Səhiyyə Nazirliyinin uzun illər xəstəxanaların özünümaliyyələşdirməsi baxımından hər hansı təsirli addımlar atmadığını, bunun isə arzuedilməz nəticələr doğurduğunu göstərir: həm xeyli tibb işçisi işini itirmiş, həm də sözügedən müəssisələr dövlət büdcəsi üzərində ciddi yük olaraq qalmışdı.

Sevindirici haldır ki, artıq bu istiqamətdə konkret fəlaiyyətə başlanıb və xəstəxanaların özünümaliyyələşdirməsi prioritetlərdən biri kimi müəyyənləşdirilib. Hərçənd, Şirəliyevin zamanında sözügedən məsələnin aktuallığı nəzərə alınsa, bununla bağlı konkret tədbirlərə start verilsə idi ən azından vaxt itirilməz və özünümaliyyələşdirmədən əziyyət çəkən xəstəxanaların sayı 90 faiz kimi kifayət qədər yüksək rəqəmlə ifadə edilməzdi.

Bir sözlə, zamanında yol verilən bir yanlış, göstərilən bir etinasızlıq, laqeydlik, göründüyü kimi, sonradan çoxsaylı fəsadlar doğurur. Ancaq nə yazıq ki, həmin yanlışlığın, bu səhvin, bu etinasızlığın və laqeydliyin sahibləri yenə də susaraq bütün məsuliyyəti üzərlərindən rahatlıqla ata bilirlər...

***Sənan Mirzə***

# Ermənistana son xəbərdarlıq: “Legitim obyektlər darmadağın edilacək"

***Sentyabrın 22-si gecə saat 02:00 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Kəlbəcər rayonu istiqamətində növbəti dəfə təxribat törətməyə cəhd edib.***

Bu barədə ”Unikal”a Müdafiə Nazirliyindən məlumat verilib. Qarşı tərəf Kəlbəcər istiqamətində yerləşən bölmələrimizi iriçaplı silahlardan, qumbaraatan və minaatanlardan atəşə tutub. Ermənistan silahlı qüvvələrinin diversiya qrupu qeyd olunan ərazilərdə dərə boşluqlarını minalamaqla bölmələrimizə basqın etməyə cəhd göstərib. Azərbaycan Ordusunun bölmələri tərəfindən görülən cavab tədbirləri nəticəsində qarşı tərəf geri çəkilməyə məcbur edilib.

Qeyd edək ki, Ermənistan tərəfi sentyabrın 21-də Azərbaycan Ordusunun bölmələri tərəfindən guya atəş açılması barədə dezinformasiya yaymaqla gecə saatlarında törətdikləri təxribata zəmin yaratmağa çalışıb. ”Bildiririk ki, Azərbaycan-Ermənistan dövlət sərhədində baş verən növbəti gərginliyə görə də bütün məsuliyyət məhz Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür”, - məlumatda qeyd edilib.

Bundan əlavə, Zəngilan istiqamətində kiçik sərhəd hadisəsi baş verib. ”Caliber”in məlumatına görə, üç erməni silahlısı göstərilən istiqamətdə postlarımızdan birinə hücum edib. Sərhədçilərimizin xəbərdarlıq atəşindən sonra onlar mövqeyimizi atəşə tutublar. Azərbaycan Dövlət Sərhəd Xidmətinin bölmələrinin cavab atəşi nəticəsində hücum edənlərdən biri yaralanıb. Erməni tərəfi hərbi kanallar vasitəsilə hadisəyə görə üzr istəyib, həmin şəxslərin sərxoş vəziyyətdə olduğunu və belə bir hadisənin komandanlıqla heç bir şəkildə razılaşdırılmadığını qeyd edib. İnsident aradan qaldırılıb, hazırda sərhəd bölgəsində vəziyyət sakitdir.

Görünən odur ki, erməni tərəfi son döyüşlərdən sonra yenicə əldə olunmuş atəşkəs razılığını pozaraq təxribatçı əməllərini davam etdirir. Təbii ki, bütün bunlar Ermənistanın hərbi-siyasi rəhbərliyinin sülhdən yayınma niyyətindən irəli gəlir.

Onu da qeyd edək ki, Prezident İlham Əliyev sentyabrın 21-də Laçın şəhərində Azərbaycan Bayrağını ucaldıb. Dövlət başçısı Laçında şanlı bayrağımızı ucaltdıqdan sonra çıxış edərək, bir sıra önəmli fikirlər səsləndirib, Ermənistana və regiona ünvanlanan əhəmiyyətli mesajlar verib. Azərbaycan müharibədən dərhal sonra İrəvana sülh təklif etdiyini diqqətə çatdıran ölkə başçısı Ermənistanın sülhə hazır olmadığını vurğulayıb. “Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır” - deyə, Prezident İlham Əliyev çıxışında bildirib.



”Azərbaycanın Şanlı Qələbə qazanmasından 2 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Ermənistan-Azərbaycan sərhədində təxribatların sayı azalmır. Atəşkəs tez-tez pozulur”. Bunu ”Unikal”a açıqlamasında hərbi ekspert, ehtiyatda olan polkovnik Şair Ramaldanov deyib. ”Son bir həftəni götürsək, elə bir gün yoxdur ki, atəşkəs pozulmasın. Burada Azərbaycan Ordusu üçün təəccüblü heç nə yoxdur. Çünki biz bilirik ki, indiyə qədər hər şeyə öz gücümüz hesabına nail olmuşuq. Bütün məsələlərin həyata keçirilməsi üçün Ermənistana təzyiq göstərməli oluruq. Azərbaycan hər zaman beynəlxalq normalar çərçivəsində addım atır və Üçtərəfli Bəyanatın müddəalarına uyğun hərəkət edir. Ermənistan isə hər zaman əks mövqe tutur. Təxribata əl atır və bu prosesləri uzatmağa çalışır. Son erməni təxribatları da sülh prosesinin uzadılması məqsədi daşıyır. Azərbaycan Ordusu vəziyyəti hər zaman nəzarətdə saxlayır. Baş verə biləcək təxribatların qarşısını almaq üçün çalışır. Biz bilirdik ki, bu ərəfələrdə belə təxribatlar ola bilər. Həm Qərbin, həm ABŞ-ın, həm Rusiyanın maraqları Cənubi Qafqazda toqquşur. Burada böyük gərginliklərə səbəb ola biləcək proseslər gedir. Buna baxmayaraq, Azərbaycan öz haqq işini davam etdirməyə qadirdir. Lazım gələrsə, Azərbaycan Ordusu istənilən anti-terror əməliyyatını həyata keçirə bilər. Ordumuz erməni təxribatlarına adekvat cavab verəcək. Ötən gün Ali Baş Komandan, Cənab Prezident İlham Əliyev də Laçında olarkən bununla bağlı öz ismarışlarını verdi. İstənilən düşmən təxribatı zamanı bütün legitim obyektlər Azərbaycan Ordusu tərəfindən darmadağın ediləcək. Azərbaycan düşmənin başını əzməklə öz gücünü bir daha göstərəcək. Bu, beynəlxalq normalara da uyğundur. Belə ki, hər bir dövlətin ona təhlükə mənbəyi olan yerlərdə tədbirlər görmək haqqı var. Onu da deyim ki, Qarabağdakı qanunsuz erməni silahlı dəstələrinin tərk-silah edilməsinə, Azərbaycanın maraqlarının tam şəkildə təmin edilməsi prosesinə başlanılıb. Ermənistan həm sülh müqaviləsini bağlamalı, həm də Azərbaycanın sərhədlərini tanımalı olacaq”, - deyə o qeyd edib.

MCP sədrinin muavini, siyasi ekspert Məhəmməd Əsədullazadə bizimlə söhbətində deyib ki, Ermənistan rəhbərliyi əldə olunan razılaşmaları pozmaq, sülhdən yayınmaq üçün müxtəlif vasitələrdən istifadə edir. O hesab edir ki, Ermənistanla Azərbaycan arasında sülhün əldə edilməsi istiqamətində Brüssel formatının uğurlu olacağı gözlənilmir: “Çünki Ermənistan Baş naziri Nikol Paşinyan yekun sülh müqaviləsinə imza atmaq istəmir. Həmçinin Qarabağda etnik ermənilərə status məsələsindən geri addım atması real görünmür. N.Paşinyan iki il ərzində Azərbaycanla apardığı danışıqları manipulyasiya edib. Aparılan danışıqların məntiqi nəticəsi bunu deməyə əsas verir”.

Onun sözlərinə görə, Ermənistan cəmiyyəti və Rusiya N. Paşinyanı Azərbaycanla sülh müqaviləsi bağladığına görə cəzalandıra bilər. Ona görə də N.Paşinyan sülh müqviləsi üzrə danışıqlarda əlavə şərtlər irəli sürür. Bundan sonra, N. Paşinyanla bu sülh danışıqları real görünmür. Əgər, sülh müqaviləsi hazır olarsa, N.Paşinyan özü deyil, komandasından bir nəfəri önə çıxarıb, ona imzanı atdıra bilər. Onun üçün mütləq şəkildə N.Paşinyan hüquqi baza yaratmalıdır: ”Ermənistan danışıqlarla deyil, növbəti hərbi güc tətbiqi ilə sülh müqviləsinə gedər. Diplomatik danışıqlarda bu ölkənin sülh müqviləsinə gedəcəyi gözlənilmir. Regionda geosiyasi şərtlər dəyişir. Ermənistan yeni reallıqlarla barışmaq istəmir. Bunun üçün Ermənistana yeni hərbi zərbələrin endirilməsi istisna deyil. ABŞ Ermənistanla Azərbaycan arasında sülhdə maraqlıdır. Amma, erməni lobbisinin təsiri ilə buna getmir. Onu da qeyd edim ki, bundan sonra Ermənistanla aparılacaq danışıqlar səmərə verməyəcək. Azərbaycan Qarabağda silahlı erməni birləşmələrinə qarşı hərbi əməliyyatlar keçirəcək və Zəngəzur dəhlizinin açılması istiqamətində proseslərə start verəcək. Bundan sonra Yerevan müəyyən dərəcədə sülh sənədinə imza atamaqda maraqlı olacaq. Qarabağda separtaçılara gəldikdə isə, üç ildən sonra Rusiya sülhməramlı qüvvələri oradan çıxacaq və Azərbaycan Xankəndinə nəzarəti bərpa edəcək. Bununla bağlı Prezident İlham Əliyevin iki strateji planı var. Birinci beynəlxalq layihə olan ”Zəngəzur” dəhlizinin açılması və Xankəndində separatizmə son qoyub, burada nəzarəti bərpa etmək. Hər iki istiqamətdə irəliləyişlərə nail olması mümkündür. Əlverişli geosiyasi mühit Azərbaycanın xeyrinə dəyişir”.

***Z.Məmmədli***



# “Dünya 5-dən böyük olsa da...” - Politoloq

***BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılması məsələsini ən çox qaldıran lider Türkiyə Cumhurbaşqanı Rəcəb Tayyib Ərdoğandır. Məhz o imkan düşdükcə Təhlükəsizlik Şurasının 5 daimi üzvünü nəzərdə tutaraq “dünya 5-dən böyükdür” ifadəsini işlədir. Türkiyə Cumhurbaşqanı BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılmasını zəruri hesab edir.***

ABŞ prezidenti Cozef Bayden BMT Baş Assambleyasında son çıxışında Ərdoğanın fikrini təkrarlayıb: “BMT Təhlükəsizlik Şurasının üzvlərinin sayını artırmaq lazımdır”.

Məsələni “Unikal”a şərh edən politoloq Elxan Şahinoğlu deyib ki, Baydenin də bu fikirdə olması təsadüfdən yaranmayıb. Baydenin fikrincə, BMT Təhlükəsizlik Şurasının həm daimi, həm də qeyri-daimi nümayəndələrinin sayının artırılmasına ehtiyac var.

- ABŞ prezidenti Afrika, Latın Amerikası və Karib hövzəsi ölkələri üçün BMT Təhlükəsizlik Şurasında yerlərin ayrılmasını zəruri sayıb. Ağ Ev sahibi BMT Təhlükəsizlik Şurasının üzvlərinin nadir fövqəladə hallar istisna olmaqla, veto hüququndan istifadə etməkdən çəkinməli olduğunu bildirib. O bunu ona görə deyib ki, Qərb ölkələrinin bütün təkliflərini adətən Rusiya və bir sıra hallarda Çin BMT Təhlükəsizlik Şurasında veto hüququndan istifadə edərək reallaşmasına imkan vermirlər. Bayden BMT Təhlükəsizlik Şurasının “etimada layiq və səmərəli fəaliyyət göstərən” bir qurum olaraq qalması üçün belə tədbirlərin zəruri olduğuna diqqət çəkib. ABŞ prezidenti bu cümləsiylə etiraf edib ki, BMT-nin həm etimadı, həm də səmərəli fəaliyyəti şübhə altındadır, - ekspert qeyd edib.

ABŞ və Türkiyə ilə yanaşı Yaponiya, Hindistan, Afrika və Latın Amerikası ölkələri də BMT Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayının artırılması ideyasını dəstəkləyirlər. Türkiyə, Yaponiya və Hindistan Təhlükəsizlik Şurasının üzvlüyünə iddialıdırlar. Afrikanın və Latın Amerikasının aparıcı ölkələri - Misir, Cənubi Afrika Respublikası və Braziliya kimi ölkələr də haqlı olaraq Təhlükəsizlik Şurasının üzvü olmaq istəyirlər.

Elxan Şahinoğlunun sözlərinə görə, Bayden və Ərdoğan Təhlükəsizlik Şurasının daimi üzvlərinin sayının artırılması ideyasını dəstəkləsələr də, bunun reallaşması problemli məsələdir.

- Misal üçün, Türkiyənin Təhlükəsizlik Şurasına üzvlüyünü Fransa, Hindistanın üzvlüyünü isə Çin əngəlləyəcək. Rusiyanın özü də Təhlükəsizlik Şurası üzvlərinin sayının artırılmasının tərəfdarı deyil. Çünki Kreml Təhlükəsizlik Şurasında ABŞ-ın dostlarının və tərəfdaşlarının sayının artırılmasını istəmir,- plitoloq vurğulayıb.

***Murad***

# İlham Əliyev Azərbaycanın yəhudi icmasını təbrik etdi



***Prezident İlham Əliyev Azərbaycanın yəhudi icmasını təbrik edib.***

"Unikal"ın məlumatına görə, təbrik müraciətində deyilir:

"Hörmətli həmvətənlər!

Sizi - Azərbaycanın yəhudi icmasını yeni il bayramınız Roş ha-Şana münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Ayrı-ayrı xalqlar və dinlər arasında qarşılıqlı hörmət və etimad mühitinin hökm sürdüyü Azərbaycanda məskunlaşan və buranı özünə doğma vətən bilən yəhudi icması yüz illərdir ki, sülh və əmin-amanlıq şəraitində yaşayaraq özünəməxsus adət-ənənələrini, dil və mədəniyyətini qoruyub saxlamış, tarixin heç bir dönəmində antisemitizm və ayrı-seçkiliklə üzləşməmişdir.

Əsrlər boyu ölkəmizdə mövcud olan multikultural dəyərlərin, dözümlülük prinsiplərinin və mədəni özünüifadə müxtəlifliyinin təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin başlıca istiqamətlərindəndir.

Təqdirəlayiq haldır ki, yəhudi əsilli həmvətənlərimiz cəmiyyətimizin ayrılmaz hissəsi olaraq, digər xalqların və etiqadların nümayəndələri ilə birlikdə respublikamızda gedən böyük quruculuq işlərində yaxından iştirak edir, müasir Azərbaycanın inkişafı və tərəqqisi naminə səylərini əsirgəmir, dövlət müstəqilliyimizin daha da möhkəmləndirilməsində vətəndaşlıq borcunu ləyaqətlə yerinə yetirirlər.

Əziz dostlar!

Roş ha-Şana yeniliyi, mənəvi saflığı, xeyirxahlıq və həmrəylik duyğularını təcəssüm etdirir. Qoy, bu nurlu bayram ailələrinizə səadət, süfrələrinizə xeyir-bərəkət gətirsin.

Bayramınız mübarək olsun!".

# Ceyhun Bayramovdan sərt reaksiya

## Nazir: "Revanşistlərə "nəfəs verilməsi" siyasi məsuliyyətsizlikdir"



***"Belə həssas bir məqamda, kövrək sülhün əldə edilməsi şansı varkən əsassız iddialar səsləndirilərək revanşistlərə "nəfəs verilməsi" siyasi məsuliyyətsizlikdir. Bunu başqa cür adlandırmaq çətindir".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "Real TV"yə müsahibəsində deyib.

O bildirib ki, müxtəlif ölkələrin ikili standartları adətən həmin ölkələrdəki seçkilər ərəfəsində özünü büruzə verir. C.Bayramov vurğulayıb ki, həm Fransada, həm ABŞ-da, çox böyük erməni lobbisi var.

"Onlar seçki prosesləri zamanı kampaniyaları dəstəkləyirlər. Dünyada baş verən bu proseslər siyasətin realıqlarıdır. Biz təmkinli olmalıyıq. Bizim heç bir illuziyamız yoxdur. Ancaq sözümüzü deyəcəyik", - XİN başçısı bildirib.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:1700



# Son sutkada neçə nəfər koronavirusa yoluxub?

***Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 201 yeni yoluxma faktı qeydə alınıb, 256 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Unikal"a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 3 nəfər vəfat edib.

# Zabuxda məktəb binasının layihələndirilməsinə 300 min manat ayrıldı

***Prezident İlham Əliyev Laçın rayonu, Zabux kənd tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.***

"Unikal" xəbər verir ki, Sərəncama əsasən, Laçın rayonu, Zabux kənd tam orta məktəb binasının layihələndirilməsi, əsaslı təmiri və bərpası məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası üçün nəzərdə tutulan vəsaitdən Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə ilkin olaraq 300,0 min manat ayrılıb.

Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etməli, Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməlidir.

Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

# Ərdoğan Putinlə Şimali Kiprə birbaşa uçuşların açılmasını müzakirə edib

***Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan rusiyalı həmkarı Vladimir Putinlə Şimali Kiprə birbaşa aviareyslərin açılmasını müzakirə etdiyini bildirib,***



"Unikal" xəbər verir ki, Ərdoğanın sözlərinə görə, Rusiyadan Şimali Kipr Türk Respublikasına birbaşa uçuşlar başlasa, əlbəttə ki, buna sevinəcəyik. prezident əlavə edib ki, turizmin yüksəlişi "iqtisadiyyatda böyük sıçrayışa" səbəb olacaq.

Türkiyə mətbuatı xəbər verir ki, Kipr türk "nəqliyyat naziri" Rusiyanın iki aviaşirkətinin noyabrın 15-də açılacaq yeni Ercan hava limanına reyslərin açılmasında maraqlı olduğunu bildirib.

# Baş prokuror səfirliyimizə edilən hücuma görə Fransa səfiri ilə görüşdü

***Sentyabrın 22-də Baş prokuror Kamran Əliyev Fransa Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros ilə görüşüb.***

"Unikal" xəbər verir ki, qonağı salamlayan Baş prokuror ölkələrimiz arasında ənənəvi dostluq və tərəfdaşlıq əlaqələrinə, bütün sahələrdə işgüzar münasibətlərin mövcudluğuna toxunaraq, əməkdaşlığın uğurla inkişaf etdiyini qeyd edib.

Kamran Əliyev ölkəmizdə diplomatik missiyasını başa vuran səfir Zakari Qrosa səmərəli fəaliyyətinə, ölkə Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsi dövründə Baş Prokurorluq tərəfindən təşkil edilmiş mətbuat konfransları və brifinqlərdə iştirak etdiyinə və ölkələrimizin hüquq mühafizə orqanları arasında konstruktiv əməkdaşlıq əlaqələrinin qurulmasında səylərinə görə təşəkkürünü bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb. Baş prokuror ölkə rəhbərliyinin diqqət və qayğısı ilə Qarabağda aparılan bərpa və yenidənqurma işləri haqda səfiri məlumatlandırıb.

Səmimi qəbula görə minnətdarlığını bildirən səfir Azərbaycanda fəaliyyətini məmnunluqla bildirərək Fransanın Azərbaycanla əlaqələrinə böyük önəm verdiyini və münasibətlərin yüksək səviyyədə və müvəffəqiyyətlə inkişaf etdiyini, eləcə də iki ölkə arasında iqtisadi, nəqliyyat, humanitar və digər sahələrdə əməkdaşlığın əhəmiyyətinə toxunaraq ikitərəfli məsələlərin bir çox sahələr üzrə irəli aparılması imkanlarının mövcud olduğunu qeyd edib. Fransanın Qarabağda minatəmizləmə fəaliyyətində iştirak etdiyini bildirən səfir, ölkəsinin şirkətlərinin işğaldan azad olunmuş ərazilərin yenidən qurulmasında maraqlı olduqlarını vurğulayıb.

Z.Qros ölkəmizin prokurorluq orqanlarında aparılan köklü islahatları yüksək qiymətləndirərək gələcəkdə Azərbaycan prokurorluğunun əməkdaşlarının Fransanın Dövlət Qulluğu üzrə Milli İnstitutu (keçmiş ENA) və Milli Magistratlar Məktəbində (ENM) təcrübə keçmələri üçün geniş imkanlar olduğunu bildirib.

Daha sonra sentyabrın 18-də Azərbaycanın Parisdəki səfirliyinin inzibati binasına etnik ermənilərdən ibarət radikal qruplaşma tərəfindən hücum edilməsi faktı ətrafında geniş fikir mübadiləsi aparılıb. Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən başlanmış cinayət işinin istintaqının Fransanın aidiyyəti orqanları ilə birgə əməkdaşlıq çərçivəsində aparılmasının vacibliyi qeyd olunaraq bu barədə müvafiq razılıq əldə olunub. Səfir Qros baş verən hadisənin təəssüf doğurduğunu bildirərək Fransa tərəfindən hadisəyə müvafiq hüquqi qiymətin verilməsi üçün aidiyyəti addımların atılacağını qeyd edib. Həmçinin bildirilib ki, ölkəmizin Parisdəki diplomatik nümayəndəliklərinin inzibati binaları hazırda tam şəkildə polis tərəfindən qorunur.

Görüşdə tərəfləri maraqlandıran bir sıra digər məsələlər müzakirə olunub, faydalı fikir mübadiləsi aparılıb.



# KTMT-nin Baş katibi Ermənistanın Azərbaycanla sərhəd bölgəsində getdi

***KTMT-nin baş katibi Stanislav Zasın rəhbərlik etdiyi missiya cümə axşamı Ermənistanla Azərbaycan sərhədində yerləşən əraziyə baş çəkib.***

"Unikal" xəbər verir ki, bu barədə təşkilatın mətbuat katibi Vladimir Zaynetdinov məlumat verib.

"Sentyabrın 22-də KTMT-nin baş katibi Stanislav Zas Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Ermənistandakı missiyası çərçivəsində Azərbaycan Respublikası ilə sərhəddə yerləşən Vayodzor vilayətinin sərhəd bölgəsinə səfər edib", - məlumatda bildirilib.

Qeyd olunub ki, Zas Ermənistan ordusunun sərhəddəki bölmələrinin komandirləri, yerli hakimiyyət orqanlarının nümayəndələri ilə görüşüb, həmçinin döyüş əməliyyatlarında iştirak edən hərbi qulluqçularla söhbət edib.

Xatırladaq ki, KTMT missiyasının qarşısında mövcud vəziyyəti qiymətləndirmək, KTMT-yə üzv dövlətlərin başçılarına regiondakı vəziyyətlə bağlı hesabat hazırlamaq və Ermənistan-Azərbaycan sərhədində müəyyən ərazilərdə gərginliyin azaldılması üçün təkliflər hazırlamaq vəzifəsi durur.

# Əli Əsədovun sədrliyi ilə gələn ilin büdcəsi müzakirə olundu

***Baş nazir Əli Əsədovun sədrliyi ilə Nazirlər Kabinetinin Azərbaycan Respublikasının 2023-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəricilərinin, Azərbaycan Respublikasının 2023-cü il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyasının və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunan geniş iclası keçirilib.***

Bu barədə "Unikal" Nazirlər Kabinetinə istinadən xəbər verir.

İclası açan Baş nazir Ə.Əsədov sentyabrın 12-si gecə və 13-ü səhər saatlarında Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycan-Ermənistan dövlət sərhədində törədilən genişmiqyaslı təxribat nəticəsində şəhid olan hərbçilərimizin əziz xatirəsini ehtiramla yad edib, onların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib. Qeyd edilib ki, Azərbaycan Silahlı Qüvvələri bu təxribatın qarşısını qətiyyətlə alıb. Baş vermiş təxribata və artan gərginliyə görə bütün məsuliyyətin Ermənistanın siyasi-hərbi rəhbərliyinin üzərinə düşdüyü bildirilib.



Xüsusi vurğulanıb ki, baş vermiş təxribatlar fonunda ölkəmizin müdafiə qabiliyyətinin gücləndirilməsi və onun daim lazım olan səviyyədə saxlanılması dövlətimizin, o cümlədən Hökumətin birbaşa qarşısında duran əsas və zəruri olan məsələlərdəndir.

Qeyd edilib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin müdafiə potensialının və ordumuzun maddi-texniki bazasının möhkəmləndirilməsi, onun müasir hərbi texnika və silah-sursatla təchizatı və hərbçilərin sosial-məişət və xidmət şəraitinin yaxşılaşdırılması hər zaman əsas xərc istiqamətlərindən biri olacaqdır. Bu istiqamətdə gələn ilin büdcəsində 5,3 milyard manatdan artıq vəsait nəzərdə tutulub.

Diqqətə çatdırılıb ki, bütövlükdə, 2023-cü il və növbəti 3 il üçün dövlət və icmal büdcə layihələri Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə uyğun olaraq və Prezidentin 2022-ci il 22 iyul tarixli Sərəncamı ilə təsdiq edilmiş "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"ndakı hədəflər nəzərə alınmaqla hazırlanıb.

2023-cü ilin dövlət büdcəsində Strategiya ilə nəzərdə tutulan layihə və tədbirlərin maliyyələşdirilməsi üçün 5,2 milyard manat vəsaitin ayrıldığı bildirilib.

Həmçinin vurğulanıb ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2022-ci ilin altı ayının yekunlarına həsr olunan müşavirədə çıxışı zamanı 2023-cü ilin dövlət büdcəsinin hazırlanması ilə əlaqədar Hökumətə bir sıra tapşırıqlar vermiş, həmin tapşırıqlar büdcə layihəsinin hazırlanması prosesində nəzərə alınıb.

Ölkəmizin uğurlu inkişafından söz açan Baş nazir bu müsbət tendensiyanın cari ilin 8 ayının nəticələrində özünü təsdiqlədiyini vurğuladı. "Belə ki, 8 ayda iqtisadi artım 5,8%, o cümlədən qeyri-neft sektoru üzrə 10,3% artmış, qeyri-neft sənayesində 9% artım qeydə alınmışdır. Xarici ticarət dövriyyəmiz 35 mlrd. dollar təşkil etmişdir", - deyə Baş nazir bildirib.

Qeyd edilib ki, hazırda ölkənin strateji valyuta ehtiyatları 2,7 mlrd. dollar artaraq təxminən 56 milyard dollara yaxındır və birbaşa xarici dövlət borcunu 7 dəfədən artıq üstələyir.

2023-cü il dövlət büdcəsi layihəsi barədə ümumi məlumat verən Baş nazir büdcə gəlirlərinin 30,7 milyard manat, xərclərinin isə 33,3 milyard manat səviyyəsində nəzərdə tutulduğunu diqqətə çatdırıb. Bildirildi ki, büdcə kəsirinin ÜDM-ə nisbəti 2,4% təşkil edir.

Əhalinin, şəhid ailələrinin, qazilərin sosial müdafiəsi və sosial təminatının gücləndirilməsinin, aztəminatlı əhalinin sosial rifahının yaxşılaşdırılmasının daim dövlət başçısının diqqət mərkəzində olduğu vurğulanıb. Qeyd edilib ki, bu istiqamətdə islahatların davam etdirilməsi, inflyasiya təzyiqi nəzərə alınmaqla həssas əhali qruplarına sosial dəstək tədbirlərinin həyata keçirilməsi üçün 2023-cü il üzrə dövlət büdcəsinin sosialyönlü xərcləri cari illə müqayisədə 9,2% çox nəzərdə tutulub.

Bildirilib ki, əhalinin sağlamlığının qorunması, icbari tibbi sığortası, dərman preparatlarına olan tələbatın ödənilməsi, müayinə, müalicə və reabilitasiyasının həyata keçirilməsi və bu sahənin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə növbəti ildə səhiyyə sisteminin təminatına da diqqət artırılacaq.

"2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsasən, təhsil sahəsində islahatların aparılmasının əsas hədəflərdən biri kimi müəyyən edildiyi diqqətə çatdırılıb. Ümumi təhsildə islahatların davam etdirilməsi, peşə təhsilinin əhatə dairəsinin genişləndirilməsi, ali təhsilin əlçatanlığının və əhatəliliyinin artırılması və bir çox digər istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsinin nəzərdə tutulduğu qeyd edilib.

Son dövrlərdə müşahidə olunan regional və qlobal geosiyasi çağırışların, istehsal zəncirində qırılmaların, həmçinin daşınma və logistika xərclərinin yüksəlməsinin dünya ərzaq qiymətlərinin bahalaşmasına, ərzaq qıtlığına, əksər ölkələrdə ərzaq məhsulları üzrə inflyasiyanın ikirəqəmli səviyyəyə çatmasına səbəb olduğu diqqətə çatdırılıb.

Təbii olaraq dünya ərzaq bazarlarındakı vəziyyətin əksər ölkələrdə olduğu kimi Azərbaycan üçün də ərzaq təminatı və ərzaq təhlükəsizliyi, idxaldan asılılıq səviyyəsinin azaldılması məsələlərini daha da aktuallaşdırdığı bildirilib.

Diqqətə çatdırılıb ki, hazırda qlobal miqyasda da əsas çağırışlardan olan ərzaq təhlükəsizliyi tədbirləri üçün dövlət büdcə xərclərinin həcmi də artırılacaq. O cümlədən Azərbaycan Respublikası Prezidentinin "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" 2022-ci il 19 iyul tarixli Fərmanından irəli gələn tədbirlər üçün gələn ilin dövlət büdcəsində müvafiq vəsaitin nəzərdə tutulduğu qeyd edilib.

Eyni zamanda dövlət başçısının tapşırıqlarına əsasən, kənd təsərrüfatının inkişafının Hökumət üçün əsas prioritetlərdən biri olduğu vurğulanıb. Bildirilib ki, 2023-cü ilin dövlət büdcəsində kənd təsərrüfatının inkişafı üzrə büdcə xərcləri cari illə müqayisədə 20,5% çoxdur.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpası, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmin edilməsi üçün şəhər və kəndlərin yenidən qurulması, həmin ərazilərdə müasir infrastrukturların yaradılması məqsədilə 2023-cü ilin dövlət büdcəsində 3 milyard manat vəsaitin nəzərdə tutulduğu diqqətə çatdırılıb.

Daha sonra maliyyə naziri Samir Şərifov Azərbaycan Respublikasının 2023-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, iqtisadiyyat naziri Mikayıl Cabbarov Azərbaycan Respublikasının 2023-cü il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev 2023-cü il üzrə Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun büdcə layihələri haqqında məruzələrlə çıxış ediblər.

Müzakirələr zamanı səsləndirilən fikir və təkliflərin "Azərbaycan Respublikasının 2023-cü il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2023-cü il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" layihələrində nəzərə alınaraq Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsinə qərar verilib.

# Müəllimlər maaşlarına əlavələri bu tarixdən alacaqlar - rəsmi



***Sertifikasiyadan keçən müəllimlərin maaşlarına əlavələrin nə vaxtdan veriləcəyi açıqlanıb.***

Bu barədə Elm və Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Cəsarət Valehov cavablandırıb.

"Sertifikasiyadan keçən bütün müəllimlər maaşlarına əlavə ödənişləri oktyabrın 1-dən etibarən alacaqlar", - deyə nazirlik rəsmisi bildirib.

Qeyd edək ki, "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"na uyğun olaraq cari ilin 30 avqust - 1 sentyabr və 13 sentyabr tarixlərində sertifikatlaşdırmanın test mərhələsi keçirilib.

Test mərhələsində ümumilikdə 11 133 nəfər təhsilverən iştirak edib və onlardan 8766 nəfər təhsilverən müəyyənləşdirilmiş keçid balını toplayıb.

12-19 sentyabr tarixlərində isə sertifikatlaşdırmanın müsahibə mərhələsi keçirilib. Həmin mərhələdə 8707 nəfər təhsilverən iştirak edib və onlardan 8676 nəfəri uğur qazanaraq sertifikatlaşdırmadan keçmiş hesab olunub.

Nəticələrə əsasən 59 nəfər müsahibə mərhələsində iştirak etməyib, 31 nəfər isə kəsilib.

Xatırladaq ki, sertifikatlaşdırma prosesinə birinci mərhələdə Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı, Quba-Xaçmaz və Gəncə-Daşkəsən Regional Təhsil idarələrinə tabe olan, həmçinin Təhsil Nazirliyinin birbaşa tabeliyindəki ümumi təhsil müəssisələrində çalışan ibtidai sinif müəllimlərinin cəlb olunub.

# Prezident Türkiyənin səhiyyə nazirini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 22-də Türkiyə Respublikasının səhiyyə naziri Fahrettin Kocanı qəbul edib.***

"Unikal" xəbər verir kiFahrettin Koca Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Qonaq vurğuladı ki, Azərbaycanın və Türkiyənin dövlət başçıları arasında sarsılmaz birlik və qardaşlıq əlaqələri bütün digər qurumlar kimi, Səhiyyə nazirlikləri arasında da əməkdaşlıq üçün yol göstəricisidir və bu baxımdan ölkələrimizin nazirlikləri sıx əməkdaşlıq həyata keçirir.

Türkiyənin səhiyyə naziri qeyd etdi ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın işğaldan azad olunması dərin sevinc hissi bəxş edir. Nazir şəhidlərlə bağlı başsağlığı verdi, qazilərə şəfa dilədi. Şuşa Bəyannaməsinin əhəmiyyətini vurğulayan Fahrettin Koca bu sənəddə əksini tapan hədəflər istiqamətində səhiyyə sahəsində də əlaqələri inkişaf etdirmək və dərinləşdirmək üçün çalışdıqlarını bildirdi.

Türkiyəli nazir dedi ki, ölkəsində səhiyyə sahəsində əldə olunan təcrübəni və elmi bilikləri azərbaycanlı həmkarlarla bölüşmək qardaşlıq borcudur. O, dövlətimizin başçısının dəstəyi ilə Bakıda keçirilən Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun əhəmiyyətindən danışdı.

Prezident İlham Əliyev Özbəkistanda Türkiyənin dövlət başçısı ilə görüşünü məmnunluqla xatırladı, dostluq və qardaşlıq əlaqələrimizin bütün sahələrdə durmadan inkişaf etdiyini vurğuladı. Dövlətimizin başçısı Şuşa Bəyannaməsinə toxunaraq bunu münasibətlərimizin rəsmi təzahürü kimi qiymətləndirdi, bu Bəyannamənin xalqlarımızın iradəsini, dövlətlərimizin maraqlarını əks etdirdiyini dedi.

Azərbaycan Prezidenti həm müharibə zamanı, həm də müharibədən sonrakı dövrdə Türkiyə həkimləri tərəfindən qazilərimizin müalicəsinə görə minnətdarlığını bildirdi.

Dövlətimizin başçısı Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığı qeyd etdi, bu baxımdan səhiyyə sahəsində də əlaqələrin təqdirəlayiq olduğunu dedi və Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumunun önəminə toxundu.

# “Durğunluq dövrünə qədəm qoymaq üzrəyik, bu da ciddi fəsadlar törədə bilər”

## Natiq Cəfərli: “Problem odur ki, maaş və pensiyaların artımı qiymətlərin daha da yüksəlməsinə səbəb olur, yəni, həmin artım inflyasiyanı konpensasiya etmir”

***REAL Partiyasının icra katibi, iqtisadçı ekspert Natiq Cəfərli ”Unikal”a müsahibə verib. O, maaş və pensiyaların nə qədər artırıla biləcəyindən, Bakıda müşahidə olunan sıxlıqdan, Rusiya-Ukrayna müharibəsindən və başqa məsələlərdən danışıb.***

***-Ötən gün ABŞ-ın Federal Ehtiyat Sistemi uçot dərəcəsini 75 baza bənd (0,75%) artıraraq 2,50%-dən 3,25%-ə yüksəldib. Bu, 1994-cü ildən bəri ən yüksək artımdır. FED-in qərarı ölkəmizdə dolların bahalaşmasına səbəb ola bilərmi?***

-FED uçot dərəcəsini artırmaqla dünyada tüğyan edən inflyasiyanı cilovlamaq istəyir. Yəni, uçot dərəcəsi artıqca, kreditlərə çıxış imkanları çətinləşir. Nəticədə inflyasiya zəifləyir və qiymətlər aşağı düşür. Dünya ölkələri inflyasiya ilə mübarizəni əsas hədəf kimi götürüblər. Bunun digər tərəfi də var. Belə ki, uçot dərəcəsi artıqca, kreditlərə çıxış imkanları çətinləşdikcə, tələb azaldıqca, iqtisadiyyat daralır. İqtisadi aktivliyin zəifləməsi ilə işsizlik yaranır. İqtisadi daralma dünya ölkələrində başqa problemlərin yaranmasına səbəb olur. Artıq dünyada iqtisadi ressesiyanın ilkin işarələri var. ABŞ-da, o cümlədən Avropa Birliyində iqtisadi daralma müşahidə olunur. Bu isə dalğavari şəkildə bütün dünyaya, hətta Çin-ə qədər yayılıb. FED-in rəhbəri çıxışında qeyd etdi ki, ilin sonuna kimi bir dəfə də faiz artımı olacaq. Bu artım olduqda isə digər Mərkəzi Banklar da məcburən faizləri yüksəldəcək. Dünya iqtisadiyyatında durğunluq dövrünə qədəm qoymaq üzrəyik. Bu da ciddi fəsadlar törədə bilər.

FED-in qərarının Azərbaycana birbaşa təsirləri yoxdur. Azərbaycan manatı bazarla tənzimlənən valyuta növü deyil. Manatın məzənnəsi bir başa Mərkəzi Bankın qərarından asılıdır. Manat əsasən dollara indeksləşib. Bunun dolayı təsirləri ondan ibarətdir ki, dolların məzənnəsi sabit qaldıqca, onun digər valyutalara olan məzənnəsinin artması, manatın da digər valyutalara qarşı möhkəmlənməsinə səbəb olur. Biz bunu Avro ilə müqayisədə görürük. Son bir ildə manat Avro qarşısında 20 faizə yaxın möhkəmlənib. Yaxın zamanlarda Azərbaycanda dolların məzənnəsinin dəyişəcəyini düşünmürəm. Ölkəmizdə ciddi inflyasiya var. Rəsmi rəqəmlərə görə, ərzaq inflyasiyası 21 faizdir. Qeyri-rəsmi hesablama aparsaq, daha yüksək rəqəmlər çıxa bilər. Bu isə Azərbaycanda sosial vəziyyəti ağırlaşdıran əsas amillərdən birinə çevrilib. Belə ki, qiymət artımı insanlar üçün əlavə yükdür. Bununla yanaşı, məzənnə dəyişsə, idxaldan asılı olan ölkə olduğumuz üçün inflyasiya daha da sürətlənər. Xaricdən gətirilən istənilən məhsulun qiyməti artar. Ümumilikdə, Azərbaycan manatı daha çox neftin qiymətindən asılıdır. Neftin qiymətinin 90 dollar və ondan yuxarı olduğu bir dövrdə, Azərbaycan manatına təhlükə olduğunu düşünmürəm.

***-Hazırda Azərbaycan neftinin qiyməti 90 dollar ətrafındadır. 2023-cü ilin dövlət büdcəsində neftin bir barelinin orta illik ixrac qiyməti 50 ABŞ dolları səviyyəsində götürüləcək. Bu il isə bir barelin qiyməti 85 dollar nəzərdə tutulub. Növbəti il üçün qiymətin aşağı götürülməsi nə ilə bağlıdır?***

-Azərbaycan hökuməti bu məsələyə konservativ yanaşır, neftin büdcədə qiymətini aşağı götürür və gözləyir. Qiymətlər yüksək olduğu halda, may ayında büdcəyə yenidən dəyişiklik edərək onu artırır. Uzun illərdir bu yanaşma davam edir. Bu il də büdcədə neftin 1 bareli 50 dollar nəzərdə tutulmuşdu. İyunda büdcə dürüstləşdirilməsi zamanı qiymət 85 dollar götürüldü. İlin əsas dövründə neftimiz 120-130 dollara qədər bahalaşmışdır. Onu nəzərə aldıqda, bu il neftin ortalama qiymət 100 dollardan yuxarı olacaq. Yəqin ki, gələn il üçün də eyni məntiqlə yanaşıblar. Neftin qiyməti icmal büdcədə 1 barel üçün 50 dollar nəzərdə tutulub. Növbəti ilin may və iyun ayında yenidən neftin bir barel üçün qiymətinin artırılacağını görəcəyik. Rusiya-Ukrayna müharibəsi davam etdikcə, neft qiymətlərində kəskin ucuzlaşmanın olacağını düşünmürəm. Müharibə davam etdikcə, neftin qiyməti 75-105 dollar arasında dəyişə bilər.

***-Siz də qeyd etdiniz ki, rəsmi ərzaq inflyasiyası 21 faizdən çoxdur. Bu qiymət artımlarından vətəndaşlar xeyli əziyyət çəkir. Növbəti ildə maaş və pensiyaların artırılması nəzərdə tutulur. İndiki bahalaşmanı konpensasiya etmək üçün maaş və pensiya artımları nə qədər olmalıdır?***

-Əvvəllər belə bir yanaşma var idi ki, maaş və pensiyalar rəsmi inflyasiya qədər konpensasiya olunurdu. Sonra bunu orta aylıq əmək haqqının artım tempinə görə dəyişdilər. İndi hər iki parametri əsas gətirsələr, ən azından maaş və pensiyalar 15-20 faiz artırılmalıdır. Problem ondan ibarətdir ki, maaş və pensiyaların artımı qiymətlərin daha da yüksəlməsinə səbəb olur. Yəni, həmin artım inflyasiyanı konpensasiya etmir. Qiymətlərin yüksəlməsi nəticəsində insanların real gəlirləri daha da azalır. Bunun effektiv həlli yollarından birini hökumətə təklif etmişik. Burada söhbət ƏDV-nin və gömrük rüsumlarının azaldılmasından gedir. Bu, qiymətlərə daha çox təsir göstərəcək, inflyasiyanın qarşısını alacaq, qiymətlərin ucuzlaşmasına səbəb olacaq. Azərbaycanda əhalinin 80 faizi şəbəkə marketlərdən ərzaq alışı edir. Bu böyük marketlər əvvəllər Bakı və Abşeron ərazisində idisə, hazırda regionlarda da fəaliyyət göstərirlər. Bu şəbəkə marketlər ƏDV ödəyicisidir. Kassada aldığımız məhsulların ödənişini edərkən, onun üzərinə 18 faiz ƏDV ödəyirik. Belə ki, 50 manatlıq ərzaq alırıqsa, 9 manat da ƏDV ödəyirik. Biz təklif edirik ki, bu, ləğv olunsun. Həmin göstərici 18 faizdən 2 faizə endirilsin. Bu olarsa, 50 manatlıq bazarlıqda 9 manat deyil, 1 manat ödəyəcəyik. Təklifimiz həmçinin, dərman vasitələrinə də aiddir. Burada həm gömrük rüsumu, həm də vergilər azaldılmalıdır. Dərman preparatlarının 96 faizi xaricdən gətirilir. Cəmi 4 faiz yerli istehsaldır ki, o da tibbi ləvazimatlardır. Dərmanları xaricdən gətiririksə, ona ƏDV və gömrük rüsumu qoymağa nə ehtiyac var? Gömrük rüsumu daxili bazarın qorunması üçündür. Daxili istehsalçı yoxdursa, gömrük rüsumları, vergilərlə kimi qoruyuruq? Vergi və rüsumların azaldılması inflyasiya ilə mübarizədə daha məntiqlidir.

***-İnsanları ən çox narahat edən əsas məsələlərdən biri də paytaxt və ona yaxın ərazilərdə olan sıxlıqdır. Yeni tədris ili başlayandan əvvəlki illərlə müqayisədə daha böyük tıxaclar müşahidə olunur. Bu sıxlıq nə ilə bağlıdır və onun tənzimlənməsi üçün hansı addımlar atılmalıdır?***

-İctimai nəqliyyatın qiymətini və sayını artırsan da, bu sıxlığın qarşısını almaq mümkün olmayacaq. Ona görə ki, bütün iqtisadi fürsətlər Bakı şəhəri və Abşeron rayonundadır. Azərbaycan əhalisinin yarısı bu iki ərazidədir. Əhalinin bu qədər hissəsi ona görə mərkəzə axışıb ki, uzun illərdir hökumət iqtisadi fürsətləri burada yaradıb. Regionlarda iş yerləri yaradılsa, sosial həyat yaxşılaşsa, bu qədər sıxlıq olmazdı. Bakı şəhərində olan sıxlığın qarşısının alınması üçün regionları inkişaf etdirmək lazımdır. İndi bunun üçün fürsət yaranıb. İşğaldan azad olunmuş torpaqlara ən azı 1 milyon əhalinin köçürülməsi nəzərdə tutulmalıdır. Bununla yanaşı, Bakı şəhərinin yükünün azaldılması üçün daha düşünülmüş addımlara ehtiyac var. Bir çox dövlət orqanları paytaxtdan köçürülməlidir. Bakıda olan bir neçə universitet işğaldan azad olunmuş ərazilərə köçürülə bilər. İşğaldan azad olunmuş yerlərdə universitet şəhərlərinin yaradılması ilə bağlı qərar daha məntiqli olardı. Bu, Bakının yükünün azalmasına kifayət qədər müsbət təsir göstərərdi.

***-Müharibənin iqtisadiyyata təsirlərini qeyd etdiniz. Ötən gün Rusiya prezidenti Vladimir Putin Rusiyada qismən səfərbərlik haqqında fərman imzaladı. Bu qərara əsasən, qismən səfərbərliyə 300 min əsgər çağırılacaq. Belə olan halda, qarşıdakı dövrdə müharibənin nə ilə nəticələnəcəyini düşünürsüz?***

-Görünən odur ki, Rusiya əvvəlki planlarından imtina edir. Fevral ayında planları ondan ibarət idi ki, Ukraynanı tamamilə məğlub etsinlər və bu ölkədə Rusiyaya bağlı hökumət qursunlar. Bu, baş tutmadı. Görünən odur ki, Rusiya indiyə qədər haranı işğal edibsə, həmin yerlərdə referendum keçirərək oranı öz ərazisi kimi rəsmiləşdirmək istəyir. Bu, mənasız bir addımdır. Referendum silah kölgəsində olmalı deyil. Müharibə gedən yerdə referendum ola bilməz. Rusiya referendum keçirəcəyi ərazilərin faktiki öz ərazisi olduğunu elan edəcək. Həmin ərazilərə olan hücumları Rusiya ərazisinə təcavüz kimi dəyərləndirərək, nüvə silahından istifadə etmək haqqının olduğunu bəyan edəcək. Daha çox buna çalışdıqları görünür. Rusiyanın təcavüzü təhlükəli bir məqama daxil olur. Dünya tərəfindən bu referendumlar tanınmır. Ukrayna tərəfi ildən etdi ki, referendumlara baxmayaraq, öz ərazilərini işğaldan azad etməkdə davam edəcək. Müharibə Rusiyanın işğaldan sonra öz ərazisi elan etdiyi yerlərə getdikcə, Rusiyanın Ukraynaya kəskin raket zərbələri endirməsi gündəmə gələcək. Güman edirəm indiyə qədər olandan daha çox raket zərbələri endirəcək ki, Ukraynanı danışıqlara məcbur etsin. Putin artıq taktiki nüvə silahından istifadə edə biləcəyini elan edib. Bu həm də faktiki olaraq döyüş meydanında uğursuzluqların etirafıdır. Rusiya tərəfi döyüşdə uğur əldə etsəydi, nüvə silahından danışmazdı. Bu elə bir təhdiddir ki, ondan istifadə edə bilər. Bu isə dünyanın sonunu gətirə biləcək və ya böyük fəlakətlərə səbəb olacaq addım olar. Düşünürəm ki, müharibə həddindən artıq qeyri-sabit dönəmə qədəm qoyub.



***Anar Kəlbiyev***

# Tağı Əhmədovun 3 milyon manatlıq rüşvəti ilə 150 manatlıq şokoladın əlaqəsi...

## Və yaxud, bir məhkəmə qərarı necə oldu ki, köhnə mətləbləri təzələdi?

***Yola salmaq üzrə olduğumuz həftə ölkə mediası Bakı şəhəri, Nizami rayonunda yerləşən OBA marketdən 150 manat dəyərində şokolad oğurlayan şəxslə bağlı məhkəmə qərarı verildiyini açıqladı. Bildirildi ki, məhkəmə prosesinə "Bakı Metropoliteni" QSC-nin keçmiş rəisi Tağı Əhmədovun oğlu, Nizami rayon Məhkəməsinin hakimi Rauf Əhmədov sədrlik edib.***

Prosesdə Nizami rayon Polis İdarəsinin 24-cü Polis Şöbəsinin sahə inspektoru bildirib ki, 1988-ci ildə Cəbrayıl şəhərində anadan olmuş Fərid Hüseynov (ad şərtidir) 2022-ci ildə OBA marketdən 150 manat dəyərində şokolad oğurlayıb. təqsirli bilinərək, barəsində 1 ay müddətinə inzibati həbs növündə tənbeh tətbiq edilib.

Təbii ki, miqdarından asılı olmayaraq oğurluq oğurluqdur və cəzasız qalmamalıdır. Odur ki, hansı səbəbdən oğurluq etməsindən, nə və ya nə qədər oğurlamasından asılı olmayaraq F.Hüseynovun cəzalandırılmasında təəccüblü heç nə yoxdur. Sadəcə, maddi imkansızlıq ucbatından şokolad oğurlamağa məcbur qaldığını deyən bir gənc zərərin ödənişi üçün vaxt istədiyi, buna görə də barəsində həbslə əlaqədar olmayan cəza istədiyi halda hakimin məhz inzibati həbs tənbeh növünü seçməsi mübahisələndirilə bilər. Axı həmin maddədə digər tənbeh növləri, məsələn, yüz altmış ticəsi" kimi qələmə vermişdi.

Maraqlıdır ki, elə həmin verilişdə Bakı Metropoliteninin sabiq rəisi diqqətçəkici bir açıqlama ilə də çıxış eləmişdi: "Vicdanıma and olsun ki, dövlətdən bir manat götürməmişəm".Tağı müəllimə inanmaq istərdik, lakin məsələ burasındadır ki, o, "MTN işi"ndə 1 milyon 200 min dollar, 1 milyon 500 min avro və 300 min manat, ümumilikdə isə o vaxtkı xarici valyuta məzənnəsi ilə təxminən 3 milyon manat rüşvət verdiyini bildirmiş, bu qədər pulu hardan aldığına dair məhkəmənin sualını isə maraqlı şəkildə cavablandırmışdı: "O vaxt 3 milyon manat böyük pul deyildi..."

Təsəvvür edirsinizmi, vəzifədəykən aylıq maaşı ən yaxşı halda 1-2



O, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsi ilə nəzərdə tutulmuş inzibati xətanı törədib. Polis əməkdaşı təqsirləndirilən şəxs barəsində inzibati tənbeh tədbirinin tərtbiq edilməsini xahiş edib.

OBA marketin müdiri izahatında təsdiq edib ki, ticarət obyektindən 150 manat dəyərində şokolad oğurlanıb.

Təqsirləndirilən şəxs Fərid Hüseynov isə izahatında qeyd edib ki, bu əməli maddi imkanı pis olduğuna görə törədib və buna görə peşmandır. O, zərərçəkmişə dəymiş 150 manat məbləğində maddi ziyanı birdəfəyə ödəyə bilmədiyini, ödəniş üçün müəyyən vaxt verilməsini və barəsində həbslə əlaqədar olmayan cəza təyin edilməsini xahiş edib.

Hakimin qərarı ilə Fərid Hüseynov İnzibati Xətalar Məcəlləsinin 227-ci maddəsi ilə nəzərdə tutulmuş inzibati xətanın törədilməsində saatdan iki yüz qırx saatadək ictimai işləri də nəzərdə tutulub...

Əlbəttə, məhkəmənin təqdir haqqına qarışmaq kimi niyyətimiz yoxdur, ancaq bir məqamı qeyd etmədən keçmək istəmədik: yuxarıdakı hökmü çıxaran hakim Rauf Əhmədovun atası, Bakı Metropoliteninin sabiq rəisi Tağı Əhmədov bir müddət öncə SPACE TV-nin "Sadə həqiqətlər" verilişində rüşvət aldığını açıq etiraf eləmişdi. O, gəlirləri və qazancı ilə bağlı sualı cavablandırarkən sadəlövhcəsinə demişdi ki, dövlətdən heç vaxt pul oğurlamayıb, hər şeyi ancaq öz ağlı ilə qazanıb: "Metronun yanında 21 mərtəbəli bina tikmək üçün sahibkar yanıma gəldi. Mən də ona dedim ki, 21 mərtəbəli binanı yerləşdirmək üçün işləyəcəm, amma haqqı budur...". Tağı Əhmədov bununla, faktiki olaraq, vəzifə səlahiyyətlərindən sui-istifadəyə və korrupsiyaya yol verdiyini etiraf eləmişdi, sadəcə, əldə etdiklərini "öz ağlının nə min manat arasında olmuş məmurun fikrincə, 3 milyon manat elə də böyük pul deyil! Halbuki həmin vəsaitin onda birini belə, camaatın 80-90 faizi yəqin ki, heç yuxusunda belə görməyib...

Demək istədiyimiz odur ki, əgər uzun illər yüksək vəzifə tutmuş bir məmur sonradan həmin postda olarkən rüşvət aldığını etiraf edir, aylıq rəsmi gəliri uzağı 2 min manata çatmadığı halda kiməsə rüşvət olaraq verdiyi 3 milyon manatı böyük pul saymır, ancaq bütün bunların heç biri hüquqi müstəvidə araşdırma mövzusuna çevrilmirsə, onda sadə bir gəncin maddi imkansızlıq ucbatından 5-10 manatlıq şokolad oğurlamağa məcbur qalması qaçılmazdır.

Burada yeganə nonsens - həmin gəncə yuxarıda bəhs etdiyimiz keçmiş məmurun hakim oğlunun cəza kəsməsidir...

***Toğrul Əliyev***



# AMEA-nın yeni Nizamnaməsinin layihəsi qəbul edilib

***Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Nizamnamə Komissiyasının iclasında yeni hazırlanmış Nizamnamə layihəsinin müzakirəsi keçirilib.***

Akademiyadan "Unikal"a verilən xəbərə görə, AMEA-nın vitse-prezidenti, Nizamnamə Komissiyasının sədri, akademik İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanının icrası ilə əlaqədar olaraq hazırlanmış Akademiyanın yeni Nizamnaməsinin layihəsi haqqında məlumat verib.

Qeyd olunub ki, yeni Nizamnamə layihəsi Prezident Fərmanı əsasında Akademiyanın işinin və elmi fəaliyyətin yenidən təşkili ilə əlaqədar məsələləri, elmi-təşkilati proseslərin tənzimlənməsi mexanizmlərini əks etdirir. Yeni Nizamnamə layihəsi hazırlanarkən elmi tədqiqatların ölkəmizin dövlət tərəfindən müəyyən edilmiş milli prioritetlərinə və inkişaf strategiyasına uyğun şəkildə, dünya elminə inteqrasiya şəraitində təşkili və həyata keçirilməsi ilə əlaqədar müddəalar, habelə elm və təhsilin qarşılıqlı əlaqəsi ilə bağlı məsələlər əsas prinsip kimi qəbul olunub. Bütövlükdə 14 maddədən və 228 bənddən ibarət olan yeni Nizamnamə layihəsində Akademiyanın strukturu, vəzifələri və hüquqları, Akademiyanın Ümumi yığıncağının, Rəyasət Heyətinin, elmi bölmələrin, regional elmi mərkəzlərin, elmi müəssisələrin, elmi-xidmət müəssisələrinin fəaliyyət istiqamətləri müəyyən olunub, Akademiyaya seçkilərlə əlaqədar məsələlərə dair prosedurlar əhatə edilib. Layihədə Akademiyanın beynəlxalq əməkdaşlığının təşkili və tənzimlənməsinə aid müddəalar da özünə yer alıb.

AMEA-nın yeni Nizamnamə layihəsinin müzakirəsində Nizamnamə Komissiyasının üzvlərindən akademiklər Telman Əliyev, Nazim Məmmədov, müxbir üzv Bəxtiyar Məmmədov, AMEA Həmkarlar Təşkilatının sədri, hüquq elmləri doktoru Habil Qurbanov, hüquq elmləri doktoru Nazim Cəfərov, biologiya elmləri doktoru, professor Ulduz Həşimova, AMEA Hüquq şöbəsinin müdiri Kamal Əliyev çıxış edərək təkliflərini və mülahizələrini bildiriblər.

AMEA-nın vitse-prezidenti, Nizamnamə Komissiyasının sədri, akademik İsa Həbibbəyli irəli sürülən təkliflərə münasibətini bildirib və müzakirələri yekunlaşdırıb. İclasda qeyd edilən təkliflər nəzərə alınmaqla AMEA-nın yeni Nizamnaməsinin layihəsi əsasən qəbul edilib və layihənin növbəti müzakirə üçün Rəyasət Heyətinə təqdim edilməsi qərara alınıb.

AMEA Nizamnaməsinin layihəsi Rəyasət Heyətinin iclasında müzakirə edildikdən sonra Akademiyanın Ümumi yığıncağına təqdim olunacaq. Nizamnamə qaydalarına əsasən AMEA-nın Nizamnaməsi Ümumi yığıncağın vəsatəti ilə Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildikdən sonra qüvvəyə minir.



## "Prava" imtahanı bu formada təşkil ediləcək

***Nəqliyyat vasitələrini idarəetmə hüququnun verilməsi üçün imtahanlar Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi vasitəsilə təşkil ediləcək.***

”Unikal” xəbər verir ki, bu barədə Prezident İlham Əliyevin Fərmanı ilə təsdiqlənən ”Daxili İşlər Nazirliyinin (DİN) Baş Dövlət Yol Polisi İdarəsinin (BDYPİ) mərkəzi informasiya sistemi haqqında Əsasnamə”də əksini tapıb.

Əsasnaməyə əsasən, sistem vasitəsilə nəqliyyat vasitələrini idarəetmə hüququnun verilməsi üçün imtahanların təşkili, sürücülük vəsiqələrinin doldurulması və verilməsi həyata keçiriləcək.

## Hərbi Dəniz Qüvvələrində komanda-qərargah təlimi başa çatıb

***Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi döyüş hazırlığı planına əsasən Hərbi Dəniz Qüvvələrində (HDQ) keçirilən komanda-qərargah təlimi başa çatıb.***

Bu barədə ”Unikal” -a Müdafiə Nazirliyindən məlumat verilib.

Təlimin planına uyğun olaraq həyəcan siqnalı ilə limandan ayrılan gəmilər Xəzər dənizinin Azərbaycana məxsus sektorunda lövbərə duraraq enerji infrastrukturlarının mühafizəsini təşkil ediblər.

Döyüş atışlı təlimdə, həmçinin şərti düşmənin suüstü hücum vasitələrinin, üzən mina və hava hədəflərinin, eləcə də terror-diversiya qruplarının məhv edilməsi üzrə tapşırıqlar hərbi dənizçilərimiz tərəfindən yüksək peşəkarlıqla yerinə yetirilib.

Döyüş fəaliyyətlərinin təşkili, o cümlədən qüvvələrin döyüşdə idarə olunması üzrə komandirlərin və qərargah zabitlərinin bacarıqlarının təkmilləşdirilməsi məqsədilə keçirilən təlimdə qarşıya qoyulan tapşırıqlar uğurla icra olunub.

## Dövlət orqanlarının siyahısı müəyyənləşdi

***“Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi”nin fəaliyyətində iştirak edən dövlət orqanlarının (qurumlarının) siyahısı müəyyənləşib.***

”Unikal”ın məlumatına görə, həmin dövlət qurumları aşağıdakılardır:

1. İqtisadiyyat Nazirliyi
2. Ədliyyə Nazirliyi
3. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi
4. Dövlət Gömrük Komitəsi
5. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi
6. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi
7. Bakı Nəqliyyat Agentliyi qismində Bakı Şəhər İcra Hakimiyyəti, həmçinin digər yerli icra hakimiyyəti orqanları
8. Mərkəzi Bank
9. İcbari Sığorta Bürosu
10. Azərbaycan məhkəmələri

# Nazim İbrahimov biznesini bu ölkələrə köçürür

## Ukraynadakı müharibəyə görə ciddi zərbə alan sabiq "diaspora şefi" çıxış yolu tapdı

***Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (2002-2008) və Diasporla İş üzrə Dövlət Komitəsinin (2008-2018) sabiq sədri olmuş Nazim İbrahimov Ukraynadakı biznesini bu ölkədən köçürməyə başlayıb. İbrahimovun Almaniya və Çexiyaya üz tutduğu deyilir.***

Belə ki, bu ilin fevralında Rusiyanın Ukraynaya hücumundan sonra sabiq ”diaspora şefi” üçün təlaşlı günlər başlayıb. O, bir neçə ay boyunca müharibənin bitəcəyini və vəziyyətin stabilləşəcəyini gözləyib, lakin son aylarda həmin gözləntilərinin özünü doğrultmadığını görüncə ailə biznesi üçün yeni ölkələrin axtarışına çıxıb. Sonda isə İbrahimov Almaniya və Çexiyada qərar tutmağa qərar verib. İddialara görə, keçmiş komitə sədrinin məhz adıçəkilən ölkələri seçməsi təsadüfi deyil. Məsələ burasındadır ki, onun Almaniyada daha əvvəldən gəlir qaynaqları vardı. Söhbət ondan gedir ki, İbrahimovun bu ölkədə maşın satış nöqtəsi və digər biznes obyektlərinin olması barədə əvvəllər də mətbuatda məlumatlar yayılıb. Hətta sabiq ”diaspora şefi”nin məhz bu biznes şəbəkəsindən əldə olunan gəlirlərinin mühüm bir qismini xaricdəki müxalifləri aylıq olaraq maliyyələşdirməyə ayırdığına dair də iddialar ortaya atılmışdı. Lakin N.İbrahimov həmin iddialar barədə susmağa üstünlük verib. Çexiya keçmiş komitə sədri üçün yad ölkə sayılmır. Onun vəzifədə olarkən Çexiyanın siyasi və biznes dairələri ilə yaxşı münasibətlər qurduğu, adıçəkilən ölkənin turizm və kurort əhəmiyyətli bölgələrində daşınmaz əmlak sahibinə çevrildiyi də verilən məlumatlar arasındadır.

Məhz yuxarıda sadalanan məqamları nəzərə alaraq Nazim İbrahimovun Ukraynadakı biznesini Almaniya və Çexiyaya köçürməyi qərarlaşdırdığı deyilir.

Qeyd edək ki, vəzifədə olarkən qalmaqallı məmur kimi yadda qalan, işdən çıxarıldıqdan sonra Prezident Administrasiyasının ovaxtkı rəhbəri Ramiz Mehdiyev tərəfindən birbaşa korrupsiyada ittiham edilən, bundan sonra həbsi belə gündəmə gələn sabiq komitə sədri hələ 1991-97-ci illərdə biznes fəaliyyəti ilə məşğul olub. Həmin vaxtdan onun ticarət işlərində Ukrayna xüsusi yer tutub.

1997-ci ilin mart ayından Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri təyin edildikdən sonra isə İbrahimov bu ölkədəki biznesini daha da möhkəmləndirib və genişləndirib.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədri təyin edildikdən sonra var-dövlətini daha da artıran İbrahimov böyük məbləğdə büdcə pullarını təyinatı üzrə xərcləməyərək onları faktiki olaraq biznesinin böyüməsinə yönəldib. Tezliklə nəinki onun özü, övladları belə böyük sərvətə yiyələniblər. Məsələn, sabiq ”diaspora şefi”nin oğlu Elnur İbrahimovun şəxsi təyyarə ilə səyahət etdiyi, bahalı yaxtalara sahib olduğu barədə mətbuatda məlumatlar yer alıb.

Keçmiş sədrin qızı Kəmalə İbrahimovanın da şəxsi biznesi barədə qeyd edilərkən onun “DeCamie” moda evinin sahibi olduğu bildirilir.

Nazim İbrahimovun Ukraynadakı böyük biznesinə gəlincə, o hazırda savaşın getdiyi ölkədə nəhəng maliyyə imperiyası qurmağa müvəffəq olub. Bu ”imperiyaya” ticarət mərkəzləri, müxtəlif profilli mağazalar, otellər və restoranlar daxildir.

Sabiq sədrin adıçəkilən ölkədəki evlərinin sayı da kifayət qədərdir. Onun orada geniş torpaq sahələrinə də sahibləndiyinə dair məlumatlar var. İddialara görə, sabiq ”diaspora şefi”nin Ukraynadakı biznes şəbəkəsi təkcə paytax Kiyevi deyil, Ukraynanın ayrı-ayrı bölgələrini, o cümlədən, qanlı savaşdan ən çox əziyyət çəkən şəhərlər siyahısında gələn Xarkovu da əhatə edir.

Bütün bunları nəzərə aldıqda isə hazırda Nazim İbrahimovun biznesini köçürmək niyyətini anlamaq olar.



Yeri gəlmişkən, Dövlət Komitəsinin sədri vəzifəsində çalışarkən N.İbrahimovun Ukraynadakı biznesini onun yaxın adamları idarə edib. O, yalnız ara-sıra bu ölkəyə səfər edərək gəlirlər barədə hesabat qəbul edirmiş. Vəzifəsindən uzaqlaşdırıldıqdan sonra isə sabiq diaspora rəhbərinin Ukraynaya səfərləri intensivləşib və o, hər səfərində yaxınlarına buradakı biznes şəbəkəsini daha da genişləndirmək niyyətində olduğunu gizlətməyib. Üstəlik, bu şəbəkənin başında artıq şəxsən özünün dayanacağını deyib. Müharibə başlamamışdan bir müddət əvvəl onun Kiyevdə olduğu, budəfəki səfərinin uzun müddətli ola biləcəyi, yəqin ki, orada qalıb Ukraynadakı biznesi ilə bağlı bütün məsələlərlə şəxsən özünün məşğul olacağı iddia edilmişdi.

Bundan başqa, N.İbrahimovun tamamilə Ukraynaya köçməsi də istisna olunmurdu.

Üstəlik, yerli mediada N.İbrahimovun mütəmadi şəkildə Kiyevə getdiyini təsdiqləyən foto da yayılmışdı. Həmin foto Ukrayna paytaxtındakı Borispol Hava Limanında çəkilmişdi və bildirilmişdi ki, o, Bakı-Kiyev təyyarə reysindən düşüb...

Lakin, necə deyərlər, sən saydığını say, gör fələk nə sayır?! Belə görünür, Rusiyanın Ukraynaya hücumu nəticəsində onsuz da işləri yetərincə qaydasında getməyən keçmiş komitə sədrini yenidən çətin durumda qoyub və İbrahimov həmin vəziyyətdən biznesini Almaniya ilə Çexiyaya köçürərək çıxmaq istəyir. Sabiq ”diaspora şefi”nin buna nail olub-olmayacağını isə zaman göstərəcək...

***Toğrul Əliyev***

# Vilyam Hacıyevin 5 milyon yarımlıq yeni davası...

## Sabiq icra başçısının ailə üzvləri müsadirə edilən əmlakları hansı məntiqlə geri istəyirlər?

***Yola salmaqda olduğumuz həftənin ən təəccüblü xəbəri İmişlinin həbsdə olan sabiq icra başçısı Vilyam Hacıyevin həyat yoldaşı Cülyetta İbrahimova və oğlu Məhəmməd Hacıyev adlarına rəsmiləşdirilmiş əmlakların müsadirə olunmasından narazılığıdır desək, yəqin ki, yanılmarıq.***

Sən demə, elə bu narazılıq səbəbindən də onlar apellyasiya şikayəti veriblər.

Şikayət ərizəsində Cülyetta Hacıyeva 5 milyon 218 min manatlıq mənzil və avtomobillərin, Məhəmməd Hacıyev isə 126 000 manatlıq "Land Rover" markalı avtomobilin müsadirədən azad olunmasını istəyib!



İşi Bakı Apellyasiya Məhkəməsində hakim İbrahim İbrahimlinin sədrlik etdiyi məhkəmə heyəti tərəfindən araşdırılır.

Xatırladaq ki, Dövlət Təhlükəsizliyi Xidməti (DTX) tərəfindən keçirilən əməliyyat zamanı həbs olunan Vilyam Hacıyev Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə, 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq), külli miqdarda törədildikdə) 313-cü (vəzifə saxtakarlığı) və 228-ci (qanunsuz silah saxlama) maddələri ilə təqsirli bilinib. O, Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 12 il azadlıqdan məhrum edilib. Hökmə əsasən sabiq icra başçısına məxsus 5 344 000 manatlıq əmlakı da dövlət nəfinə müsadirə olunub.

Məhkəmə prosesində Vilyam müəllim ictimaiyyət tərəfindən maraqla və gülüşlə qarşılanan bir açıqlama vermişdi. Demişdi ki, DTX əməkdaşları tərəfindən saxlanılarkən mənzilindən və xidməti otağından götürülən pulların hamısı həyat yoldaşının babasından miras qalmış vəsaitlərdir!

Yada salaq ki, həmin məbləğ 2 504 057 ABŞ dolları və 1 006 470 avro, 365 ingilis funt sterlinq, 60 İsveçrə frankı, 455 türk lirəsi, ümumilikdə isə 6 298 834 manat idi.

Sabiq icra başçısına həyat yoldaşının babasından bu qədər fantastik məbləğdə miras qalması ona görə maraqla qarşılanması təəccüblü deyildi. Hər kəs mərhum babanın on illər öncə, özü də Sovetin qılıncının dalı-qabağı kəsdiyi bir vaxtda nə işlə məşğul olduğunu düşünməyə başlamışdı. Kimsəni qınamaq olmazdı - 1930-40-ci illərdə bir belə böyük sərvət toplamaq necə mümkün idi?!

Gülüş yaradan isə o idi ki, həyat yoldaşının babasından 6 milyon manatdan artıq miras qaldığını söyləyən Vilyam müəllim hələ vəzifədə olarkən kirayədə yaşadığını bildirirdi. Sitat: "Heç harda heç bir biznesim və əmlakım yoxdur. Hətta İmişlidəki şəkər zavodunda ailələr üçün tikilmiş yataqxanada, ailəmlə birlikdə aylıq 124 manat kirayə haqqı ödəməklə yaşayıram".

Necə deyərlər, o nə pəhrizdir, bu nə alça turşusu?! 6 milyonluq miras sahibi olan bir ailə niyə yataqxanada, üstəlik, kirayədə yaşasın?!

Əslində Vilyam müəllimin vəzifədə olarkən kirayə qaldığı barədə dedikləri də, hakim qarşısına çıxarkən iş otağından və mənzilindən aşkarlanan pullarla bağlı söylədikləri də bir məqsədə xidmət edir - gözdən pərdə asmağa! İcra başçısı postunu tutarkən cəmiyyəti inandırmağa çalışırdı ki, "təmiz" işləyir, nə dövlətin büdcəsində gözü var, nə vətəndaşın cibində; sadə həyat sürür, güc-bəla ilə dolanır, hətta o qədər ki, yataqxanada kirayə yaşamağa məhkumdur. Həbsdə olarkən isə yenə də ictimaiyyətdə belə təəssürat yaratmaq istəyir ki, barəsindəki ittihamlar əsassızdır, nə rüşvətlə bir əlaqəsi olub, nə korrupsiya ilə... Evindən, xidməti otağından aşkarlanan pullar da həyat yoldaşının babasından qalıb. Vəssalam, şüttamam!

Elə indi onun həyat yoldaşının və oğlunun ümumilikdə 5 milyon yarımlıq mənzil və avtomobillərin müsadirədən azad olunması tələbinin arxasında da bu yanaşma dayanır: Hacıyevlər ailəsinin üzvləri düşünürlər ki, cəmiyyət Vilyam müəllimin dediklərinə inanıb, hamı sabiq icra başçısının aydan arı, sudan duru olduğu qənaətindədir, müsadirə edilən əmlakları onun "halal haqqı"sayır. Əks təqdirdə, hansı məntiqlə həmin əmlakların özlərinə qaytarılması tələbi ilə çıxış etsinlər ki?!

Əcaib mənzərə yaranıb - dövlət və cəmiyyət cəzalandırılan korrupsionerlərin həbsdə islah olunmasını, illər uzunu yol verdikləri səhvlərdən nəticə çıxarmasını, xalqdan oğurlanan pulları geri qaytararaq əməllərindən səmimi peşmançılıq çəkməsini gözləyir, dəmir barmaqlıqlar ardındakı sabiq məmurların bəziləri isə hələ də köhnə adətlərindən qurtula bilmirlər, gülməli bəhanələrlə oğurluq sərvətlərini qorumaq dərdindədirlər.

Bundan sonra adam qalır mat-məəttəl, bilmir nə desin, nə yazsın...

***Sənan Mirzə***



# Parlamentdə erməni təxribatları haqda dinləmələr keçiriləcək

***Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində Azərbayan vətəndaşlarının pozulmuş hüquqlarının müdafiəsinin və Azərbaycan dövlətinə dəymiş ziyanın beynəlxalq instansiyalarda müvafiq iddialar əsasında gerçəkləşdirilməsinin hüquqi mexanizmləri ilə bağlı Milli Məclisdə xüsusi dinləmənin keçirilməsi nəzərdə tutulur.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin İnsan hüquqları komitəsinin payız sessiyası üçün iş planında yer alıb.

Komitənin iş planına daxil edilən digər məsələlər aşağıdakılardır:

- Vətən müharibəsi dövründə və ondan sonra Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarının hüquqi qiymətləndirilməsi və beynəlxalq təşkilatlarla birgə tədbirlərə dair müzakirələrin keçirilməsi;
- Vətən müharibəsindən sonra Ermənistanın Azərbaycana qarşı təxribatlarının insan hüquqları kontekstində qiymətləndirilməsi, beynəlxalq təşkilatlara bununla əlaqədar davamlı olaraq sənədlərin, hüquqi aktların göndərilməsi;
- Hüquq profilli QHT-lərlə keçirilən görüşlərdə "Komitə yanında İnsan Haqları ilə bağlı Çevik qrupun yaradılması" ilə bağlı təklifin reallaşdırılması yönündə tədbirlərin görülməsi;
- "Xaricdə yaşayan soydaşlar və diaspor təşkilatları haqqında" qanun layihəsinin hazırlanmasına dair dinləmələr;
- Rəqəmsal məkanda ölkə vətəndaşlarının hüquqlarının qorunması ilə bağlı qanun layihəsinin hazırlanması;
- Qarabağa Böyük Qayıdışla bağlı qanunvericilik aktının hazırlanmasına dair müvafiq dövlət-hökumət qurumları ilə birgə işin təşkili və s.

İş planı müzakirələrdən sonra komitə üzvləri tərəfindən qəbul edilib.

# Səfirliklərin təhlükəsizliyi 100 faiz təmin olunmalıdır! - Nazir

***"Səfirliklərin yüksək standartlarla mühafizəsinin təşkil edilməsi müəyyən mənada Azərbaycan dövlətinin götürdüyü beynəlxalq öhdəliklərə nə qədər böyük məsuliyyətlə yanaşmasının bariz nümunəsidir".***

"Unikal" xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov "Real TV"yə müsahibəsində deyib.

Nazir qeyd edib ki, BMT-yə üzv olan bütün dövlətlər Vyana Konvensiyasının üzvüdür. Nazir bildirib ki, Konvensiyaya əsasən, beynəlxalq münasibətlərin təməl prinsiplərini qəbul edən hər bir dövlət diplomatik missiyanın və diplomatların təhlükəsizliyini yüz faiz təmin etməlidir:

"Bu kimi təxribat xarakterli addımlara, radikal erməni qruplaşmaları tərəfindən bizim diplomatlarımıza, diplomatik missiyalarımıza qarşı hücumlara münasibət bildirərkən, ilk növbədə, onu qeyd etmək istərdim ki, hər bir qəbul edən tərəfin öhdəliyi təhlükəsizliyin təmin olunmasıdır. Burada vəziyyət eyni deyil. Biz bu təxribatları bir çox ölkədə görürük. Elə ölkələr var ki, özləri qabaqlayıcı tədbirlər görür. Bəzi hallar olur ki, biz özümüz onları məlumatlandırırıq və onlar tez, çevik, operativ tədbirlər görürlər və bunun qarşısını alırlar. Amma, əfsuslar olsun ki, bəzi hallarda, yumşaq desək, qəbul edən tərəfin reaksiyası və addımları buna adekvat deyil. Biz belə olan təqdirdə, təbii ki, ciddi şəkildə tələblərimizi qoyuruq, səfirlər dəvət olunur, onlara etiraz notaları verilir ki, bu təmin edilsin".

Xatırladaq ki, son günlər bir qrup erməni radikalları Azərbaycanın Fransa, Livan və Gürcüstandakı səfirliklərinə basqın ediblər.



## "Artıq pandemiyanın sonuna yaxınlaşırıq" - Teymur Musayev

***"Azərbaycanda yetərincə vaksin var. Bu günə qədər heç bir peyvənd vurdurmayan şəxsləri vaksinasiyadan keçməyə çağırıram".***

"Unikal" xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev jurnalistlərə açıqlamasında deyib.

Nazir Azərbaycanda pandemiya ilə bağlı vəziyyəti də açıqlayıb:

"Ümumdünya Səhiyyə Təşkilatının rəhbərliyi artıq pandemiyanın sonuna yaxınlaşması ilə bağlı işıq göründüyünü bildirib. Azərbaycanda koronavirusdan ölüm halları minimal səviyyədədir. Yoluxanlar hələ də var. Buna görə pandemiyanın sonuna doğru getdiyimizi bəyan edə bilərəm".

## AKB "AzInTelecom" MMC-nin Kibertəhlükəsizlik xidmətindən faydalandı

***Azərbaycan Kredit Bürosu Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən "AzInTelecom" MMC-nin dövlət və özəl qurumlar üçün təqdim etdiyi İnformasiya təhlükəsizliyi xidmətlərindən faydalanıb.***

"Unikal" xəbər verir ki, AKB-nin "findoc.az" platformasına xidmət çərçivəsində OSINT - açıq mənbə kəşfiyyatı və zəifliklərin yoxlanılması da daxil olmaqla, real kiberhücum ssenariləri ilə təhlükəsizlik simulyasiyası (penetration testing) təşkil olunub. "AzInTelecom" MMC-nin mütəxəssisləri müxtəlif təhlükəsizlik testləri həyata keçiriblər.

Kibertəhlükəsizlik xidməti çərçivəsində hazırlanmış hesabat Azərbaycan Kredit Bürosuna təqdim edilib.

Qeyd edək ki, "AzInTelecom" MMC-nin təklif etdiyi İnformasiya təhlükəsizliyi xidmətləri çərçivəsində dövlət qurumları və özəl müəssisələrə razılaşdırılmış qaydada kiberhücum həyata keçirilir, hədəf olan infrastruktur və sistemdən boşluqların istismar edilməsi imkanı yoxlanılır. Aşkar edilmiş boşluqlar, onlara qarşı kiberhücumun növü və uğurlu olma ehtimalı, potensial risklər barədə müştəri məlumatlandırılır və tövsiyələr verilir.

## Laçında top mərmiləri tapılıb

***Laçında top mərmiləri aşkarlanıb.***

Bu barədə "Unikal"a Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin Bərdə regional qrupundan bildirilib.

Qeyd edilib ki, Laçın Rayon Polis Şöbəsinin əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində şəhər ərazisində 2 ədəd top mərmisi aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

# Dövlət satınalmaları ətrafında mübahisələr səngiməк bilmir

## Məmurların 5 manatlıq şirkət sevgisi...

***Bakı Nəqliyyat Agentliyinin (BNA) "N Tensile" MMC ilə satınalma müqaviləsi bağlaması müzakirələrə səbəb olub. Belə ki, maliyyə dəyəri 160 305.83 AZN olan müqavilədə BNA-nın inzibati və köməkçi binalarında təmir, ərazidə yerləşən "Düşərgə" binasında yenidənqurma işlərinin, ofis otaqları üçün mebel dəstlərinin və inventarların satın alınması nəzərdə tutulur.***

Yerli medianın yazdığına görə, "N Tnesile" MMC 24 fevral 2021-ci ildə dövlət qeydiyyatına alınıb. Nizamnamə kapitalı 5 AZN olan şirkətin hüquqi ünvanı Bakı şəhəri Binəqədi rayonu, Dəmiryol, ev 49-da yerləşir. MMC-nin qanuni təmsilçisi Mirzəyev Nail Eldar oğludur.

Açıq mənbələrdə şirkət və qanuni təmsilçisi barədə hər hansı məlumat yoxdur. Həmçinin şirkətin nə rəsmi veb-səhifəsi, nə də telefon nömrəsi var.

Görünür, bu şirkətin yeni yaranması ilə bağlıdır. Yeri gəlmişkən, "Dövlət satınalmaları haqqında" Qanunda qeyd edilir ki, satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığın, təcrübənin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması şərtdir. Bir ilin şirkətinin bu kriteriyalara cavab verməsi inandırıcı görünmür.

Dövlət satınalmaları ilə bağlı vahid elektron portalda "N Tensile" MMC-nin 3 satınalma müsabiqəsində qalib gəldiyi qeyd edilib. Bunlardan ikisini BNA, birini isə "Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu " ASC keçirib.

BNA-nın iyun ayında bağladığı müqavilədə Bakı şəhəri Suraxanı rayonu Zığ şosesi 95 ünvanında nəzərdə tutulan avtobus dayanacaq parkının ikinci mərhələsinin tikintisi işlərinin satın alınması nəzərdə tutulur. Göründüyü kimi şirkət kondisioner və digər mallar satan, həm də tikinti işlərini həyata keçirir.

Əslində bənzər satınalmalarla bağlı xəbərlərə mütəmadi rast gəlirik. Bir sıra dövlət qurumları cəmi bir neçə aydır yaradılan, nizamnamə kapitalı uzaqbaşı 5 manat olan şirkətləri yüz minlərlə, bir sıra hallarda hətta milyonluq tenderlərin qalibi elan edirlər. Bu isə həmin satınalmaların şəffaflığı ilə bağlı çoxsaylı şübhələrə, müəmmalara yol açır. Bu cür şübhələrin, müəmmaların heç də boşuna olmadığını hüquq-mühafizə orqanlarının ayrı-ayrı nazirliklərdə, icra hakimiyyətlərində, və digər dövlət qurumlarında apardığı anti-korrupsiya əməliyyatları təsdiqləyir. Belə əməliyyatlar zamanı məmurların özlərinə yaxın şirkətlərlə çirkli tender sövdələşmələrinə dair inanılmaz faktlar ortaya çıxır.

Acınacaqlısı odur ki, medianın, müstəqil iqtisadçıların, millət vəkillərinin çoxsaylı çağırışlarına baxmayaraq bir çox vəzifə sahibləri dövlət satınalmaları sayəsində şəffaflığı təmin eləməkdə maraqlı görünmürlər. Şübhəsiz ki, burada məqsəd aydındır - bəzi məmurlar üçün tenderlər hələ də ən rahat və asan korrupsiya üsulu olaraq qalır. Ekspertlər həmişə vurğulayırlar ki, qanunda hər hansı tenderdə qalib olan şirkətin həmin sahədə ağılabatan təcrübəyə və gərəkli nizamnamə kapitalına malik olması şərtdir. Ancaq müəyyən məmurlar hələ də qanunvericiliyin tələblərindən yox, şəxsi maraqlarından çıxış eləməkdə israrlıdırlar.

Təsadüfi deyil ki, tenderlərlə bağlı ölkə başçısı da bir müddət əvvəl kifayət qədər kəskin tənqidi fikirlər səsləndirmişdi. Prezident bildirmişdi ki, həbs edilmiş icra başçıları tender prosedurlarını kobudcasına pozurdular: "Yəni, dövlət xətti ilə aparılan layihələrin, dövlət alışlarının icrası ilə əlaqədar tenderlərdə adətən bir neçə icra başçısına, ya da ki, onun müavininə yaxın olan şirkətlər qalib gəlirdilər. Nə üçün? Çünki burada da rüşvətxorluq və mənimsəmə halları kütləvi xarakter alırdı və bu da dövlət büdcəsinə böyük ziyandır"...



Lakin bir sıra vəzifə sahibləri hələ də "köhnə hamam, köhnə tas" prinsipi ilə işləməyi üstün tuturlar. Onlar büdcə vəsaitlərinə xalqın və dövlətin malı kimi yox, "dədə malı" kimi baxmaqda davam edirlər. Ən əsası isə bu günədək həbs olunan icra başçılarının, ayrı-ayrı nazirliklərin rəhbər şəxslərinin cinayət dosyelərindən nəticə çıxarmayaraq, şübhəli, müəmmalı tender sövdələşmələrindən çəkinmirlər.

Acınacaqlı haldır, ancaq reallıq budur. Və belə görünür, biz qarşıda məmur həbsləri barədə hələ çox xəbər eşidəcək, hələ çox məlumat oxuyacağıq. 5 manatlıq şirkətlər, 3-5 aylıq MMC-lər fantastik məbləğlərlə ifadə olunan tenderlərdə "qalib" gəldikcə başqa cür sadəcə mümkün deyil...

***Toğrul Əliyev***

**6.3.3. insan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması**

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

# Azərbaycanda uşaqlar müharibənin qurbanına çevrilib

## Ombudsman Aparatı: "Müharibə zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə hərbi hücumları nəticəsində baş vermiş uşaq tələfatı ilə bağlı tərəfimizdən xüsusi hesabat hazırlanaraq beynəlxalq qurumlara göndərilib"

***Uşaqlar cəmiyyətin aparıcı qüvvəsi olduğundan, ölkəmizdə uşaq hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirilir. Amma müharibələr uşaqlardan da yan keçmir. Azərbaycanda da uşaqlar İkinci Qarabağ müharibəsinin fəsadları ilə üzləşiblər. İkinci Qarabağ Müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində uşaqlar qurbana çevrilib. Buna baxmayaraq onların pozulmuş hüquqlarına beynəlxalq miqyasda toxunulmayıb.***



Bu müharibə dövründə Ermənistan tərəfinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində 10-dan çox uşaq həlak olub, 50-si yaralanıb, bir çox uşaq isə valideynlərini itirib. Həmçinin mülki obyektlərin hədəfə alınması, bir çox yaşayış evlərinin, təhsil və səhiyyə müəssisələrinin dağıdılması uşaqların təhsil, sağlamlıq və digər hüquqlarının pozulmasına gətirib çıxarıb. Bununla yanaşı, atılan intensiv atəşlər uşaqların psixoloji sarsıntı keçirməsinə səbəb olub.

Bəs görəsən bu uşaqların hüquqlarının qorunması istiqamətində hansı hüquqi addımlar atılıb?

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Aparatından sorğumuza cavabda bildirildi ki, Ombudsman təsisatı olaraq, Ermənistan tərəfindən Azərbaycanın mülki yaşayış məntəqələrinin raket hücumlarına məruz qalması faktlarını beynəlxalq humanitar hüququn tələblərinin kobud pozuntusu kimi diqqətə çatdırıb. Ermənistan tərəfindən törədilən müharibə cinayətləri nəticəsində dağılan mülki obyektlərin yerləşdiyi ərazilərdə tərəfimizdən fakt-araşdırıcı missiyalar həyata keçirilib. Araşdırmalar nəticəsində əldə olunan faktoloji materiallar əsasında hesabatlar hazırlanaraq müvafiq qurumlara göndərilibdir.

Müharibə zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın yaşayış məntəqələrinə hərbi hücumları nəticəsində baş vermiş uşaq tələfatı ilə bağlı tərəfimizdən xüsusi hesabat hazırlanaraq beynəlxalq qurumlara göndərilib. Bununla yanaşı, həmin müharibə cinayətləri nəticəsində qurbana çevrilmiş uşaqların pozulmuş hüquq və azadlıqları ilə bağlı beynəlxalq təşkilatlara və aidiyyəti qurumlara müvafiq bəyanat və müraciətlər göndərilib, dünya ictimaiyyətinə bu ədalətsizliyə hüquqi müstəvidə düzgün qiymət verməklə bağlı çağırışlar edilib.

Müvəkkil UNICEF-in 28 oktyabr 2020-ci il tarixli, Dağlıq Qarabağ və ətraf ərazilərdə davam edən döyüşlərlə bağlı verdiyi bəyanatında qətlə yetirilmiş azərbaycanlı uşaqların sayının, soyadlarının və həlak olduqları rayonların adlarının bəyanatda göstərilmədiyini əsas götürməklə qəti etirazını bildirib və UNICEF-in icraçı direktoruna həmin faktlarla bağlı müraciət edibdir. Müraciətdə qeyd olunan faktlara münasibətdə UNICEF tərəfindən mövqe nümayiş etdirilməsi, Ermənistanın müharibə cinayətlərinin qarşısının alınması ilə bağlı təsirli tədbirlər görülməsi, uşaqların ən ümdə maraqlarının təminini ədalət və insanlıq naminə tələb edilməklə birgə faktaraşdırıcı missiyanın keçirilməsi təklif edilibdir.

Ermənistanın təcavüzü nəticəsində zərərçəkmiş ailə və uşaqların psixoloji sağlamlığının bərpa edilməsinin zəruriliyi nəzərə alınaraq, Ombudsmanın təşəbbüsü ilə geniş əhali qruplarını əhatə etməklə psixoloji yardım üzrə müvafiq fəaliyyət həyata keçirilibdir.

Cari ildə 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə bağlı Müvəkkil dünya ictimaiyyətinə videomüraciət ünvanlayaraq heç bir əlamətinə görə ayrı-seçkiliyə yol vermədən uşaqların hüquqlarının qorunmasına çağırış edib.

Müvəkkil müraciətində İkinci Qarabağ Müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutması nəticəsində qurbana çevrilmiş uşaqların pozulmuş hüquqlarına toxunub, 4 iyun Aqressiya qurbanı olan uşaqların Beynəlxalq Günü ərəfəsində dünya ictimaiyyətini uşaqları hər cür zorakılıqdan, təcavüzdən müdafiə etməyə çağırıbdır.

Qurumdan o da bildirildi ki, uşaqlıq dövrü insanın daha həssas yanaşma tələb edən bir mərhələsi olduğundan, uşaqların hər zaman xüsusi diqqət və müdafiəyə ehtiyacları var. Uşaqların hüquqlarının müdafiəsi irqindən, cinsindən, sosial statusundan, doğulduğu yerdən və digər mənsubiyyətindən asılı olmayaraq təmin edilməlidir. Bütün uşaqlar sülh, ləyaqət, tolerantlıq, azadlıq, bərabərlik, həmrəylik, qayğı mühitində böyüməli və onların hüquqları və maraqlarının qorunması hər kəs tərəfindən təmin edilməlidir.

Məlumat üçün bildirək ki, ölkəmiz BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasına və bu Konvensiyanın 2000-ci ildə qəbul olunmuş iki Fakültativ Protokoluna qoşulub.

Uşaq hüquqları sahəsində ən mühüm sənədlərdən olan UHK uşaqların hərtərəfli inkişafı və layiqli həyat səviyyəsinin təmin edilməsi üçün iştirakçı dövlətlərin üzərinə öhdəlik qoyur. Azərbaycan bu Konvensiyanı ratifikasiya edən ölkə olaraq uşaq hüquqlarının qorunması və onların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində hüquqi, institusional və digər islahatlar üzrə tədbirlər görür.

Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən respublikamızda uşaq hüquqlarının təmin olunması istiqamətində bir sıra sosial, iqtisadi və hüquqi islahatlar həyata keçirilib, eyni zamanda bu sahədə mühüm qanunvericilik aktları və dövlət proqramları qəbul edilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə uşaqların hərtərəfli inkişafı üçün zəruri olan şərait yaradılıb, bir sıra sosial, təhsil və səhiyyə müəssisələri tikilib, yenidən qurulub və ya əsaslı təmir edilib, bu istiqamətdə müxtəlif layihələr və çoxşaxəli fəaliyyət həyata keçirilib.

Prezidentin 2012-ci il 8 may tarixli Fərmanı ilə "Uşaq hüquqlarının həyata keçirilməsinə dövlət nəzarəti qaydası" təsdiq edilibdir.

Ölkəmizdə "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" təsdiq edilib.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Türkiyəyə müalicəyə gedənlər üçün portal istifadəyə verilib

***Türkiyəyə müalicəyə gedənlər üçün xüsusi portal istifadəyə verilib.***

"Unikal" xəbər verir ki, Türkiyənin səhiyyə naziri Fahrettin Koca Azərbaycan-Türkiyə Səhiyyə Biznes Forumu və sərgisinin açılış mərasimi zamanı deyib.

"Müalicə üçün ölkəmizi seçən şəxslər portal üzərindən xəstəxana və həkim seçimini edə biləcəklər", - deyə nazir əlavə edib.

Nazir onu da deyib ki, bu gün Azərbaycanda Türkiyəyə məxsus 1000-dən çox dərman vasitəsi qeydiyyatdan keçib. Onun sözlərinə görə, ölkədə fəaliyyət göstərən xəstəxanalarda Türkiyə istehsalı avadanlıqlar və tibbi ləvazimatlardan da istifadə olunur.

T.Musayev bildirib ki, Azərbaycan Tibb Universitetində (ATU) 700-dən çox türkiyəli tələbə və 10-a yaxın rezident təhsil alır. O üeyd edib ki, ATU Türkiyənin 20-yə yaxın ali təhsil müəssisəsi ilə əməkdaşlıq edir.

# Sərhəddə xəsarət almış hərbçilərin əlillik təyinatı aparılır

***Sentyabrın 12-14-də Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribatının, ölkəmizin ərazisinə və suverenliyinə qarşı hərbi təhlükələrin qarşısının alınması zamanı xəsarət almış hərbi qulluqçuların əlilliyinin səyyar formada əyani müayinələr aparılmaqla operativ qiymətləndirilməsinə başlanılıb.***



Nazirlikdən "Unikal"a verilən məlumata görə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertlərindən ibarət işçi qrupu Müdafiə Nazirliyinin Baş Klinik Hospitalında və Dövlət Sərhəd Xidmətinin Hərbi Hospitalında müalicə alan hərbçiləri ziyarət edərək onlara ilkin əyani baxış keçirib.

Məqsəd onların sağlamlıq vəziyyətlərinin operativ qiymətləndirilməsi, əlillik təyinatına əsas olduğu halda lazımi sənədlərin sürətli şəkildə rəsmiləşdirilərək elektron sistemə daxil edilməsinə dəstək və əlillik təyinatının aparılmasıdır.

Artıq xəsarət almış 50-dək hərbiçinin səyyar əyani müayinəsi aparılıb. Proses növbəti günlərdə də davam edəcək.



## Köçərli Həsənov vətəndaşları qəbul edəcək

***Mərkəzi icra hakimiyyəti orqanlarının, digər idarəetmə qurumlarının rəhbərlərinin 2022-ci ilin sentyabr ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə uyğun olaraq "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Köçərli Həsənov 28 sentyabr 2022-ci il tarixində Masallı şəhərində Masallı və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edəcək.***

"Unikal" xəbər verir ki, qəbul saat 10:00-dan başlayaraq Masallı şəhəri Heydər Əliyev Mərkəzində keçiriləcək. Qəbulda sakinlərin aidiyyəti üzrə müraciətləri dinləniləcək.

Qəbulda COVID-19 xəstəliyinə qarşı 3-cü doza (buster doza) ilə peyvənd olunmuş, birinci və ikinci dozadan tələb olunan müddət keçməmiş, peyvəndləməyə əks göstərişi olan, xəstəliyə yoluxaraq immunitet sertifikatına malik vətəndaşlar iştirak edə bilər.

Vətəndaşlar qəbul üçün Masallı və Yardımlı Sukanal Sahələrinə, həmçinin 431-47-67 (daxili: 22-92, 22-93) nömrəsi və office@azersu.az elektron poçtu vasitəsilə ilə "Azərsu" ASC-yə müraciət edə bilərlər.

## Türkiyəyə göndərilən qazilərin sayı açıqlandı

***"Bu günə qədər 200-ə yaxın vətəndaş müalicə üçün Türkiyəyə göndərilib və əksəriyyəti Vətənə qayıdıb".***

"Unikal" xəbər verir ki, bunu səhiyyə naziri Teymur Musayev Azərbaycan-Türkiyə səhiyyə biznes forumunda deyib.

Onun sözlərinə görə, Vətən müharibəsində yaralanan şəxslərin müalicəsi məhz qardaş ölkənin tibb işçilərinə həvalə edilib.

"İki ölkə arasında inkişaf edən əlaqələr səhiyyə sahəsinə də təsir edir. Bu gün dünya xəritəsinə baxsaq Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan başqa dövlətlər yoxdur", - T.Musayev söyləyib.

Nazir bildirib ki, istər pandemiya dövründə, istər müharibə dövründə və müharibədən sonrakı müddətdə Türkiyə daim Azərbaycanın yanında olub, haqq işinə dəstək verib.

## Azərbaycanda iki yeni medal təsis edilir

***Azərbaycanda 2 yeni medal təsis edilir.***

"Unikal" xəbər verir ki, bu barədə məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçiriləcək iclasının gündəliyinə daxil edilib.

Belə ki, "Prokurorluq orqanlarında qulluqda fərqlənməyə görə" və "Prokurorluq orqanları ilə səmərəli əməkdaşlığa görə" Azərbaycan Respublikası medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanuna dəyişiklik layihəsi birinci oxunuşda müzakirə olunacaq.

# Məhkəmə hökmlərinin tanınması qaydası təkmilləşdirilir

***Xarici dövlətlərin məhkəmə hökmlərinin tanınması qaydası təkmilləşdirilir.***

"Unikal" xəbər verir ki, bu məsələ Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin bu gün keçirilən iclasında müzakirə edilən və parlamentin plenar iclasına tövsiyə edilən Cinayət-Prosessual Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.



Qanun layihəsi "Cinayət fəaliyyətindən əldə edilən gəlirlərin leqallaşdırılmasına, axtarışına, həbsinə, müsadirəsinə və terrorçuluğun maliyyələşdirilməsinə dair" Avropa Şurası Konvensiyasının 25-ci (müsadirə edilən əmlak) maddəsinin icrası məqsədilə hazırlanıb. Həmin maddəyə uyğun olaraq tərəf bu Konvensiyanın 23-cü və 24-cü maddələrinə uyğun olaraq müsadirə etdiyi əmlaka sərəncamı öz milli qanunvericiliyinə və inzibati prosedurlarına uyğun həyata keçirir. Tərəf bu Konvensiyanın 23-cü və 24-cü maddələrinə uyğun olaraq digər tərəfin təqdim etdiyi sorğu əsasında hərəkət etdikdə tərəflər milli qanunvericiliyin yol verdiyi həddə və müvafiq sorğu təqdim edildikdə, cinayətdən zərərçəkmiş şəxslərə kompensasiyanın ödənilməsi və əmlakın qanuni sahiblərinə qaytarılması məqsədilə müsadirə olunmuş əmlakın sorğu edən tərəfə qaytarılmasının mümkünlüyünü prioritet olaraq nəzərdən keçirirlər.

# Dövlət Toxum Fondu bölgələrdə elit toxumların səyyar satışına başlayır

***Payız əkini mövsümü ilə əlaqədar olaraq Dövlət Toxum Fondu tərəfindən fermerlərin və təsərrüfat sahiblərinin toxuma olan tələbatını sərfəli qiymətlərlə təmin etmək məqsədilə bölgələrdə səyyar xidmətin təşkili nəzərdə tutulub.***

"Unikal" xəbər verir ki, bu gündən etibarən Dövlət Toxum Fondu tərəfindən rayon mərkəzindən uzaq məsafədə yerləşən kənd və qəsəbələrdə səyyar satış xidməti başlayır. Respublikamızın bir çox regionlarını əhatə edəcək səyyar satış zamanı fermerlərimiz keyfiyyətli, elit toxumlar əldə edə biləcəklər.

Səyyar satışın həyata keçirilməsində əsas məqsəd, keyfiyyətli toxumun alışı zamanı vətəndaşların sərf etdikləri zaman, məsafə itkisinin və əlavə məsrəflərin qarşısının alınması, həmçinin vətəndaşlara Fondun əlçatanlığını, yaxınlığını təmin edərək vətəndaş məmnuniyyətinə nail olmaqdır.

Səyyar satış vasitəsilə vətəndaşlara həmçinin maarifləndirici məlumatların paylanılması, payız əkini öncəsi aqronom məsləhətlərinin verilməsi nəzərdə tutulub.

Səyyar satışla Kənd Təsərrüfatı




Nazirliyinin 1652 Çağrı Mərkəzinə o cümlədən Fondun 077 299 40 40 nömrəsinə müraciət edərək məlumat almaq olar.

# Bu şəxslər cinayət məsuliyyətinə cəlb olunacaq

***Qaçaqmalçılıq maddəsində nəzərdə tutulmuş cinayət əməlləri olmadan, əvəzləşdirmə və digər qarşılıqlı hesablaşma üsulları ilə 50 min manatdan yuxarı məbləğdə pul vəsaitinin köçürülməsini təşkil etmiş fiziki şəxs cinayət məsuliyyətinə cəlb ediləcək.***

"Unikal" xəbər verir ki, bu məsələ Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb.

Qeyd edilən əməllərin vəzifəli şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə və ya külli miqdarda, xüsusi külli miqdarda törədil-



məsi bu cinayətin ağırlaşdırıcı tərkib hissəsi kimi nəzərdə tutulub.

Layihədə Cinayət Məcəlləsinin 190-cı maddəsinin qeyd hissəsinə müvafiq dəyişikliklər etməklə bu əməllərin törədilməsini xeyli, külli və xüsusilə külli miqdarının məbləği müəyyən edilir.

Eyni zamanda Cinayət Məcəlləsinə əlavə edilməsi təklif edilən 206-1 maddəsində nəzərdə tutulmuş əməllərin törədilməsinə görə hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi təklif olunur.

İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliyə əsasən, 50 min manatadək məbləğdə Azərbaycandan xarici ölkələrə və ya xarici ölkələrdən Azərbaycana qanunsuz köçürülməsini təşkil etmiş şəxsin inzibati məsuliyyətə cəlb edilməsi nəzərdə tutulub.

# Sürücü ilə yol polisi arasında insident

***Sosial şəbəkələrdə sürücü və yol polisi arasında mübahisəni əks etdirən videogörüntü yayılıb.***

"Unikal" xəbər verir ki, videoda sürücü DYP əməkdaşları tərəfindən ona zor tətbiq edildiyini bildirib.

Məlum görüntü ilə bağlı Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin baş inspektoru, polis mayoru Araz Əsgərli bildirib ki, həmin video yeni deyil. O qeyd edib ki, sürücü 90 DH 093 dövlət qeydiyyat nişanlı avtomobili idarə edən Mehdiyev Səməndər Rizvan oğludur:

"Taksi fəaliyyəti ilə məşğul olub. Avtomobilinin üzərində 3 ayı tamam olmuş cərimələrinə görə həbs qərarının olduğu ona izah edilib. Bildirilib ki, qanunun tələblərinə görə avtomobil duracağa aparılmalıdır. Sürücü əvvəl razılığını bildirib, daha sora avtomobilə əyləşərək, qapıları bağlayıb həmin yerdən uzaqlaşmağa çalışıb. Bu zaman polis əməkdaşı əlini qapıya atanda ayağı ilə onun əlini sıxır və çəkiliş edib gərginliyi məqsədli şəkildə öz xeyrinə göstərməklə qanuni işini görən polisi nüfuzdan salmağa çalışır. Şəxs aidiyyəti üzrə ərazi polis bölməsinə təmin edilib.

Nizami Rayon Məhkəməsinin qərarı ilə polisin qanuni tələbinə tabe olmadığı üçün barəsində 10 sutka həbs qərarı verilib. Daha sonra isə himayəsində azyaşlı uşaq olduğunu əsas tutaraq məhkəmə qərarından apellyasiya şikayəti verib. Cəza növü cərimə ilə dəyişdirilib.

Polis qanuna tabe olmayan şəxsin özbaşnalığına hüquqi qiymət verərkən çətin anlar yaşana bilər. Lakin hər hansısa çəkiliş və ya digər bu tip vidyo materiallara görə öz işinə qarşı qətiyyətli münasibətini dəyişməməlidir. Hərə əlinə bir kamera götürüb polisin işinə müdaxilə edib nizam-intizama təsir etməyi düşünürsə, yanılır. Belə əməllərdənsə, qanunların tələbini vaxtında icra edib vəziyyəti gərginləşdirməməyi tövsiyə edirik".

# Rayonlarda su təsərrüfatı sistemləri yenilənir



***Şəkidə torpaq kanal beton üzlüyə alınır. Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat katibi Dilqəm Şərifov bildirib ki, Şəki Suvarma Sistemləri İdarəsi rayon ərazisində olan 38980 ha suvarılan torpaq sahələrinin su ilə təminatına xidmət edir.***

Əkin sahələrinin suvarılması dağ çaylarından qidalanan təsərrüfatlararası və təsərrüfatdaxili kanallar, 5 ədəd nasos stansiyalar, idarənin balansında olan 222 ədəd subartezian və artezian quyuları vasitəsi ilə həyata keçirilir. Mənbələrdən götürülən suların sahələrə itkisiz və vaxtında çatdırılması məqsədi ilə torpaq məcralı kanallar beton üzlüyə alınır. 7 kəndin 6000 hektara yaxın əkin sahələrinin suvarma suyu ilə təminatına xidmət edən Dəhnə beton kanalında son illərdə əsaslı təmir işləri aparılır. Dəhnə beton kanalın ümumi uzunluğu 28 km-dir ki, həmin kanal da uzun müddətdir istismar olunur. 2022-ci ilə qədər kanalın 9,5 km hissəsində əsaslı təmir işləri aparılaraq, beton üzlüyü bərpa edilib. Bu il isə 2,1 km hissədə kanalın əsaslı təmir olunması nəzərdə tutulub. Bundan başqa suyun maneəsiz axınını təmin etmək üçün torpaq məcralı kanallar il boyu lildən təmizlənir.

Ümumi uzunluğu 17,5 km olan 10-a yaxın kəndin 3483 ha suvarılan torpaq sahələrinə xidmət edən Cəyirli arx təsərrüfatlararası kanalı 1961-ci ildən istismar olunur. Mənbəyini Əlican çayından götürən kanal torpaq məcralıdır. Bu günə kimi kanalın 11 km hissəsi lildən təmizlənib. Bununla bərabər rayon ərazisində olan sel təhlükəli dağ çaylarında sel sularının maneəsiz axıdılması məqsədi ilə mexanizmlərlə tənzimləmə işləri görülür. Bu işlər 2022-ci ilin 8 ayı ərzində 314 min m3 həcmdə həyata keçirilib.

Qeyd edək ki, Şəki Suvarma Sistemləri İdarəsi balansında olan 222 ədəd subartezian quyusu vasitəsi ilə 50 min nəfərə yaxın əhalinin içməli, kommunal-məişət və digər məqsədlər üçün, həmçinin 1550 ha həyətyanı və 1500 ha əkin sahələrinin suvarma suyu ilə təminatını həyata keçirir. İdarə tərəfindən 2022-ci ilin 8 ayı ərzində 81 ədəd subartezian quyusunda cari təmir işləri aparılıb.

Lənkəranda suvarma mövsümü başa çatır. Dilqəm Şərifov bildirib ki, cənub bölgəsində suvarma mövsümü geridə qaldı. Suvarma suyunun ərazilərə maneəsiz verilməsi üçün Lənkəran rayonu ərazisində görülən işlər öz bəhrəsini verib. Əldə olunan yüksək məhsuldarlıq, xüsusən də strateji məhsul çay, çəltik, çiyələk və digər dənli bitkilərin yığımı bunun bariz nümunəsidir.

Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsinin su anbarı, Lənkəran rayonunun 7000 hektar, Astara rayonunun 2000 hektar və Lerik rayonunun isə 284 hektar əkin sahələrini suvarma su ilə təmin edir. Xanbulançay su anbarından başqa, Lənkərançay çayının 12 ədəd sututarından və 14 ədəd su artizian quyularından istifadə olunur. Suvarma mövsümünün əvvəlində Xanbulançay su anbarına 50 milyon kubmetrdən artıq su yığılıb və həmən su səmərəli şəkildə suvarmalara istifadəyə verilib. Hal - hazırda suvarma bitdikdən sonra Xanbulançay su anbarında 18 milyon kubmetr su ehtiyatı qalıb.

Yuxarı Xanbulançay Hidroqovşağı İstismar İdarəsinin balansında 1600 km uzunluğunda suvarma şəbəkəsi mövcuddur. Bunun 960 km uzunluğunda hissəsi bağlı şəbəkələrə aiddir. Bundan başqa Xanbulançay Hidroqovşağı İdarəsinin balansında 40 km - dən yuxarı beton üzlüklü magistral kanal mövcuddur ki, həmən kanallarda, istər kanalların özündə istər də hidrotexniki qurğularda hazırlıq işləri ilə əlaqədar cari təmir işləri görülüb və suvarmaya hazır vəziyyətə gətirilib. Suvarmanın mütəşəkkil keçirilməsi üçün idarənin texnikaları tərəfindən suvarma şəbəkələrində mütamadi olaraq, lildən təmizlənmə işləri aparılıb. Mövsümün əvvəlindən 456 min kubmetr həcmində torpaqqazma işləri həyata keçirilib. Bu da öz gücünü işin keyfiyyətli olmasında göstərdi.

Qeyd edək ki, suvarma ilə yanaşı Lənkəran və Astara rayonlarını müəyyən qədər içməli su təminatı da Xanbulançay su anbarı vasitəsilə həyata keçirilir. Hərəkət istiqamətinə uyğun olaraq su sağ və sol sahil magistral kanalları ilə verilir. Bu magistral kanalların üzərində yerləşən su nasos stansiyaları daim diqqətdə saxlanılır.

Göyçay çayında 4 km-dən çox mühafizə tədbirləri görülüb. Dilqəm Şərifov bildirib ki, Azərbaycan Meliorasiya Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin tabeliyində olan Kür-Araz Çaylarında Bəndlərin İstismarı İdarəsi təsdiq olunan plana uyğun olaraq bir-neçə çayda məcratəmizləmə və bəndbərkitmə işlərini davam etdirir. Ümumiyyətlə idarənin fəaliyyəti xidməti ərazilərində yaşayış məntəqələrini, xalq təsərrüfatı obyektlərini sel və daşqın sularından qorumaqdan ibarətdir. Vəzifəsi isə balansında olan torpaq mühafizə bəndlərini daim nəzarətdə saxlamaq, aşınma, çökmə, sürüşmə hallarında təmir-barpa işləri aparmaq, kənar müdaxilələrdən qorumaq, selyuma proseslərini nəzarətdə saxlamaq, qarşısını almaq, balansında olan çay məcralarını lildən təmizləməkdən ibarətdir. İdarənin balansında ümumilikdə 1491 km uzunluğunda torpaq mühafizə bəndləri mövcuddur ki, bundan 936 km-i Kür çayı, 134 km-i Araz çayı, 421 km-i isə dağ çayları boyuncadır.

İdarə tərəfindən Kür çayının sahillərinin intensiv yuyulan yerlərində qaya uçmalarının qarşısını almaq məqsədilə 2012-2021-ci illər ərzində 14320 m uzunluğunda, 366178 kub metr həcmində daş betonla sahilbərkitmə işləri aparılıb. 2022-ci ilin əvvəlindən bu günə kimi isə maşın və mexanizmlərin köməyi ilə cari təmir hesabına 2748 min kub metr həcmində torpaq işləri yerinə yetirilib. Çaylarda yarana biləcək sel təhlükəsinin qarşısını almaq və qabaqlayıcı tədbirlər görmək məqsədilə hazırda Göyçay çayında mühafizə bəndlərinin təmiri və məcratəmizləmə işləri həyata keçirilir. Bu işlərin görülməsi üçün Göyçay çayına idarənin xeyli sayda texnikası cəlb olunub.

Göyçay çayında ilin əvvəlindən etibarən zəif sayılan yerlər nəzarətə götürülüb, hissə-hissə olmaqla 4 km-dən çox məsafədə həm məcratəmizləmə həm də bəndbərkitmə işləri həyata keçirilib. Artıq istər Göyçay çayda, istərsədə digər çaylarda mühafizə tədbirləri il boyu davam etdiriləcək.

***Hüseyn İsgəndərov***



## Ürəklərə köçən qəhrəman Vüsal

***Dağlar diyarı Lerik rayonunun Almu kəndində dünyaya göz açmış Vüsal Bəxtiyar oğlu Məlikov müstəqil həyata qədəm qoyanda Vətənini hər şeydən üstün bilir.***

Odur ki, hər zaman onun keşiyində durmaq üçün özünü hərbiyə bağlayır. Belə ki, 2016-cı ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə qəbul olur, 2020-ci ildə oranı əla qiymətlərlə bitirərək N saylı hərbi hissədə leytenant rütbəsində xidmətə başlayır. Öz doğma Vətənini göz bəbəyi kimi qoruyur, hər an onun yolunda canını, qanını belə fəda etməyə hazır olur.

Gənc zabit 2022-ci il 13 sentyabr tarixində Azərbaycan-Ermənistan dövlət sərhədində erməni təxribatının qarşısına almağa çıxanlardan birinci olur. Döyüş zamanı yüksək şəxsi rəşadət və şücaət göstərməklə yağı düşmənə sözün həqiqi mənasında qan qusdurur. Özü də 22 yaşında canından əziz tutduğu Vətən naminə şəhidlik zirvəsinə ucalır. Vüsalın bu şərəfli ölümü onu bütöv bir xalqın qəhrəmanlıq simvoluna çevirir. Nə qədər ki, Azərbaycan var olacaq, onun müqəddəsliyinə tapınaraq şəhidlik yolunu seçən Vüsalın adı da onunla birgə çəkilər...

Qəhrəman şəhid Vüsal Bəxtiyar oğlu doğulduğu Almu kəndində torpağa tapşırıldı.

Şəhidimizin dəfn mərasimində Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasov, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhidin ailə üzvləri və yaxınları, hərbçi yoldaşları, rayon ictimaiyyəti iştirak edirdilər. Dəfn mərasimdə çıxış edən Əkbər Abbasov şəhidin ailə üzvlərinə baş sağlığı verdi, Vüsal kimi igid, vətənpərvər oğullarla hər bir azərbaycanlının fəxr etdiyini dedi. Şəhidin tabutu üzərinə sərilən bayraq icra başçısı tərəfindən onun atasına verildi.

***Zəfər Orucoğlu,***
***AJB üzvü***

# Yaponiya Rusiyaya qarşı sanksiyaları genişləndirəcək



***Yaponiya Rusiyaya qarşı ixrac sanksiyalarını genişləndirmək niyyətindədir.***

"Unikal" xəbər verir ki, bu barədə Yaponiyanın xarici işlər naziri Yoşimaşi Hayaşi Nyu-Yorkda keçirilən Yeddilik Qrupu (G7) ölkələrinin xarici işlər nazirlərinin görüşündəki çıxışında deyib.

Bildirilir ki, hərbi və müdafiə sahəsinə aid təşkilatlar sanksiya siyahılarına daxil ediləcək.

Daha əvvəl bildirilmişdi ki, Yaponiya müdafiə sektoru ilə əlaqəli Rusiya şirkətlərinə və təşkilatlarına qarşı ixrac sanksiyaları tətbiq edib.

Ümumilikdə yenilənmiş siyahıya "Almaz-Antey", "Tactical Armament", "VNII ETALON", "Inteltech" və digərləri daxil olmaqla 71 şirkət daxildir.

Yaponiya həmçinin Rusiya Federasiyası, DXR və LXR-dən olan 133 nəfərə, o cümlədən Rusiyanın baş naziri Mixail Mişustinə, Rusiya Federasiyası Təhlükəsizlik Şurası katibinin müavini Rəşid Nurqaliyevə, LXR və DXR liderlərinə qarşı sanksiya tətbiq edib.

Bundan əvvəl Yaponiyanın baş naziri Fumio Kişida Rusiyaya qarşı əlavə sanksiyalar, o cümlədən qabaqcıl mallara embarqo tətbiq etdiyini açıqlamışdı.

***Gülayə Mecid***

# Zelenski Ərdoğana təşəkkür etdi



***Ukrayna Prezidenti Volodimir Zelenski Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təşəkkür edib.***

"Unikal" xəbər verir ki, o, bu barədə tviter səhifəsində yazıb.

"Rusiyada əsirlikdə olan 215 nəfər geri qaytarılıb. Onların arasında Azovstal və Mariupolun 188 müdafiəçisi də var. 5 komandir Türkiyədə qalacaq. Onlar ailələri ilə görüşə biləcəklər. Buna görə Prezident Ərdoğana ürəkdən minnətdaram".

Qeyd edək ki, dünən R.T.Ərdoğanın vasitəçiliyi ilə 215 əsir Ukraynaya qaytarılıb.

# BMT-də İran prezidenti çıxış edən zaman zaldan çıxdılar



***Yəmən Prezident Şurasının sədri Rəşad əl-Alimi İranın yəmənli husi milislərinə dəstəyinə etiraz edib.***

"Unikal" xarici KİV-ə istinadən xəbər verir ki, Alimi İran prezidentinin çıxışı zamanı BMT Baş Assambleyasında rəhbərlik etdiyi Yəmən nümayəndə heyəti ilə birlikdə zalı tərk edib.

Qeyd edək ki, İsrail səfiri Erdan da Nyu-Yorkda BMT Baş Assambleyasının sədrinin çıxışı zamanı prezidentin Holokostla bağlı dediklərinə cavab olaraq zalı tərk edib.

Erdan Holokostdan sağ çıxan nənəsinin şəklini qaldıraraq ümumi yığıncaq zalından çıxıb.

***Ağarza Elçinoğlu***

# Çində keçmiş nazir edam ediləcək

***Çin Xalq Respublikasının keçmiş ədliyyə naziri, İctimai Təhlükəsizlik Nazirliyinin keçmiş rəis müavini Fu Çjenxua edam cəzasına məhkum edilib.***

"Unikal" xəbər verir ki, bu barədə ölkənin Mərkəzi Televiziyası Çin məhkəməsinə istinadən məlumat yayıb.

"Fu Çjenxua rüşvətxorluğa görə edam cəzasına məhkum edilir. Onun edamı 2 il ərzində həyata keçiriləcək", - məlumatda deyilir. Məhkəmə müəyyən edib ki, Çjenxua şəxsi maraqları üçün rüşvət alaraq vəzifə səlahiyyətlərindən istifadə edib. O, 117 milyon yuandan çox (təxminən 16,5 milyon dollar) rüşvət alıb.

Qeyd olunur ki, təqsirləndirilən şəxs özünü təqsirli bilib, peşman olub, həmçinin qanunsuz yolla əldə etdiyi vəsaiti qaytarıb.

***Ağarza Elçinoğlu***

# "Rus deputatlar da səfərbərliyə yazılacaq" - Volodin

***"Qismən səfərbərlik tələblərinə cavab verən deputatlar Rusiyanın Ukraynada keçirdiyi xüsusi hərbi əməliyyatda iştirak etməlidir".***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya Dövlət Dumasının sədri Vyaçeslav Volodin "Telegram" kanalında yazıb.



Bundan əlavə, Dövlət Dumasının spikeri xüsusi əməliyyatdan sonra Donbasda olan deputatların adlarını açıqlayıb

"Adəm Delimxanov SVO-nun əvvəlindən Donbasda olub, Çeçenistan Respublikasının könüllüləri Dmitri Sablin, Viktor Vodolatski, Əhməd Doqayev və başqalarına rəhbərlik edib", - Volodin bildirib.

Bundan əvvəl Rusiya Federasiyası Dövlət Dumasının Komitəsinin sədri Andrey Kartapolov bəyan etmişdi ki, məmurlar qeyd olunan meyarlara cavab verərsə, onlar qismən səfərbərliyə məruz qala bilərlər.

Sentyabrın 21-də Rusiya prezidenti Vladimir Putin vətəndaşlara müraciət edərək, qismən səfərbərlik elan edib.

Onun sözlərinə görə, Rusiya Federasiyasında qismən səfərbərlik çərçivəsində yalnız ehtiyatda olan vətəndaşlar, ilk növbədə təcrübəsi olanlar hərbi xidmətə çağırılacaqlar.

***Gülayə Mecid***

# Şimali Koreyadan Rusiyaya silah tədarükü xəbəri ilə bağlı açıqlama

***Şimali Koreya Rusiyaya heç vaxt silah tədarük etmədiyini və bunu etmək niyyətində olmadığını deyib.***

"Unikal" xəbər verir ki, bu barədə Koreya Mərkəzi Xəbər Agentliyi adı açıqlanmayan müdafiə rəsmisinə istinadən məlumat yayıb.



"ABŞ və digər düşmən qüvvələr Pxenyan və Moskva arasında silah sövdələşmələri haqqında şayiə yayır. Biz ABŞ-ı bu cür anti-KXDR ritorikasını yaymaqda qətiyyətlə qınayırıq və sərt şəkildə xəbərdar edirik", - açıqlamada bildirilib.

"Biz əvvəllər heç vaxt Rusiyaya silah və ya sursat ixrac etməmişik və ixrac etməyi planlaşdırmırıq", - deyə nazirlik rəsmisi əlavə edib.

***Ağarza***

# Zaxarova Baydenin bu çıxışını "ədəbsiz" adlandırdı

***Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarova ABŞ prezidenti Co Baydenin BMT Baş Assambleyasının 77-ci sessiyasında Rusiya prezidenti Vladimir Putinin nüvə təhlükəsi ilə bağlı çıxışını "ədəbsiz" adlandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə TASS məlumat yayıb. Bildirilir ki, Bayden çıxışında Moskvanın "Avropaya qarşı nüvə silahından istifadə etmək üçün açıq-aşkar təhdidlər etdiyini" deyib. Bundan sonra Mariya Zaxarova rus telekanallarının birində Amerika liderinin çıxışını şərh edib.



"ABŞ prezidentinin çıxışına gəlincə, mən bunun nədən başladığını və nəyin əsas istiqamətə çevrildiyini tamamilə nalayiq hesab edirəm. O, çıxışında Rusiya prezidentindən sitat gətirməklə başlayıb. Bu ədəbsizlikdir. Onun bu çıxışı Rusiya prezidentinə qarşı idi".

# Ukrayna Rusiyanın hərbi itkilərini açıqladı

***Ukrayna ordusu Rusiya Silahlı Qüvvələrinin daha 400 hərbçisini məhv edib.***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahı məlumat yayıb. Bununla da müharibə başlayandan bəri Rusiyanın Ukraynada canlı qüvvə itkilərinin sayı 55 510-a çatıb. Bildirilib ki, Rusiyanın digər döyüş itkiləri 2 236 tank, 4 776 zirehli döyüş maşını, 1 341 artilleriya sistemi, 318 reaktiv yaylım atəşi sistemi, 169 hava hücumundan müdafiə sistemi, 253 təyyarə, 218 helikopter, 941 PUA, 240 qanadlı raket, 15 gəmi, 3 630 avtomobil texnikası və avtosistern, 125 xüsusi texnikadan ibarətdir.

# "Olimpiakos" bir neçə futbolçusunu əsas komandadan uzaqlaşdıracaq

***"Qarabağ"ın Avropa Liqasının qrup mərhələsindəki rəqiblərindən olan Yunanıstan "Olimpiakos"u bir neçə futbolçusunu əsas komandadan uzaqlaşdıracaq.***




Qol.az klubun saytına istinadən xəbər verir ki, bu barədə Pirey təmsilçisinin yeni baş məşqçisi Xose Miçel bildirib.

O, oyunçu çoxluğunun komandaya mənfi təsir etdiyini söyləyib: "Bu, həm məşqçi, həm də komadanın özü, həm də futbolçular üçün problemdir. Ona görə də klub prezidentindən xahiş etmişəm ki, qapıçılar istisna olmaqla, məşqlərdə futbolçu sayı 24-dən çox olmamalıdır". Qeyd edək ki, "Qarabağ" "Olimpiakos"a qarşı ilk oyununu oktyabrın 6-da səfərdə, növbəti matçını isə oktyabrın 13-ü Bakıda keçirəcək.

Xatırladaq ki,Yunanıstan klubu qrup görüşləri üçün 31 oyunçu sifariş edib.

# Türkiyə Lüksemburqa, Fransa Avstriyaya qarşı

***Millətlər Liqasında qrup mərhələsinin 5-ci turu start götürəcək.***

İlk oyun günündə A, C və D Liqalarında ümumilikdə 10 oyun keçiriləcək.

C Liqasında Türkiyə Lüksemburqa uduzmasa, vaxtından əvvəl B Liqasına vəsiqə qazanacaq. Azərbaycan millisi C Liqasının 3-cü qrupunda Slovakiyaya qalib gəlsə, Qazaxıstan Belarusla matçın nəticəsindən asılı olmayaraq, qrupdan lider kimi çıxacaq və B Liqasına yüksələcək.

A Liqasında Danimarka Xorvatiyaya, Niderland isə Polşaya qalib gəlsə, finala vəsiqəni təmin edəcəklər.

Millətlər Liqası, qrup mərhələsi, 5-ci tur

**22 sentyabr**

**A Liqası**

**1-ci qrup**

22:45. Fransa - Avstriya

22:45. Xorvatiya - Danimarka

Xallar: Danimarka - 9, Xorvatiya - 7, Avstriya - 4, Fransa - 2

**4-cü qrup**

22:45. Polşa - Niderland

22:45. Belçika - Uels

Xallar: Niderland - 10, Belçika - 7, Polşa - 4, Uels - 1

**C Lqası**

**1-ci qrup**

22:45. Türkiyə - Lüksemburq

22:45. Litva - Farer adaları

Xallar: Türkiyə - 12, Lüksemburq - 7, Farer adaları - 4, Litva - 0



**3-cü qrup**

18:00. Qazaxıstan - Belarus

22:45. Slovakiya - Azərbaycan

Xallar: Qazaxıstan - 10, Slovakiya - 6, Azərbaycan - 4, Belarus - 2

**D Liqası**

**1-ci qrup**

20:00. Latviya - Moldova

22:45. Lixtenşteyn - Andorra

Xallar: Latviya - 12, Moldova - 7, Andorra - 4, Lixtenşteyn - 0



# "Atletiko" Simeone ilə bağlı qərarını verdi

***"Atletiko" baş məşqçisi Dieqo Simeoneni istefaya göndərməyəcək.***

Qol.az xəbər verir ki, bu barədə "AS" nəşri məlumat yayıb. Bildirilib ki, mütəxəssisin rəhbərlik qarşısında böyük etimadı var. Hazırda onun istefasından söhbət gedə bilməz. Lakin rəhbərlik komandanın bu mövsümdəki nəticələrinə görə məyusdur.

Klub mövsümün sonuna qədər Simeoneyə vəziyyəti düzəltmək üçün vaxt və fürsət vermək niyyətindədir. "Atletiko" çempionat zamanı məşqçi dəyişməyi planlaşdırmır.

Qeyd edək ki, Madrid təmsilçisi La Liqada 10 xalla 7-ci pillədə qərarlaşıb.

# UEFA yeni turnir yaradır

***UEFA Superkuboku ləğv olunur.***

Apasport.az saytının məlumatına görə, qitə futbol qurumu turniri yenisi ilə əvəz etməyi planlaşdırır.

Superkubokun əvəzinə 4 komandanın iştirakı ilə yeni yarış keçiriləcək. Bura MLS klubları da dəvət alacaq.

Bu, daha yüksək qazanc əldə etmək məqsədi daşıyır. Belə variant İspaniya Superkuboku modelini xatırladacaq.

Yarışda Çempionlar Liqası, Avropa Liqası, Konfrans Liqası və MLS təmsilçisi mübarizə aparacaq. Bu turnir yayda və Avropadan kənarda baş tutacaq.

Qeyd edək ki, Superkubok 1972-ci ildən keçirilir.





# Dibala: "Yuventus"dakı son illər asan keçmədi"

***Bu yay "Yuventus"dan "Roma"ya keçən Paulo Dibala Turin təmsilçisindəki son mövsümlərini xatırlayıb.***

Qol.az ESPN-ə istinadən xəbər verir ki, 28 yaşlı hücumçu transferin onun üçün yaxşı seçim olduğunu deyib:

"Yuventus"dakı son bir neçə il asan keçmədi. Dəyişikliklər mənim üçün yaxşı oldu. Mourinyo ("Roma"nın baş məşqçisi - red.) mənə zəng etdi və bir neçə dəqiqə ərzində qərarımı verdim. O və klubun direktoru mənə layihə haqqında və keçən il olduğu kimi qalib gəlmək arzularından danışdılar. Belə bir komandada əsas futbolçulardan olmaq mənə çox kömək edir".

Qeyd edək ki, Dibala "Roma" ilə 3 illik müqavilə imzalayıb. Bu mövsüm hücumçu bütün turnirlərdə 8 oyunda 4 qol vurub və 2 qolun ötürməsini verib.

# Baqa "Sumqayıt"da "2" aldı

***"Sumqayıt"ın istefaya göndərdiyi baş məşqçisi Aleksey Baqanın Azərbaycan karyerası uğursuz alınıb.***

Apasport.az saytının məlumatına görə, 2022-ci ilin əvvəlindən "Gənclik şəhəri" təmsilçisini çalışdıran belaruslu ölkəmizi "2" ilə tərk edib.

Söhbət 41 yaşlı mütəxəssisin Sumqayıtın eyniadlı klubundakı qələbə sayından gedir. Komandanı 9 ayda 23 matça çıxaran Baqa cəmi 2 qələbə görüb.

Onun yetirmələri 8 heç-heçə edib və 13 dəfə uduzub. 15 qol vuran sumqayıtlılar 38 top buraxıb.

Bu matçların 21-i Premyer Liqa, 2-si kuboka təsadüf edib. Çempionatda 2 qələbə və 2 heç-heçə ilə 8 xal qazanılıb. 12 yenilgi görən belaruslu 14 qola sevinibsə, 36 dəfə üzülüb.

Kubokda isə heç-heçə və məğlubiyyət qeydə alınıb. Burada top fərqi 1-2 olub.

Qeyd edək ki, Misli Premyer Liqasının VII turunun "Qəbələ" ilə oyunu (0:1) baş məşqçi üçün klubda son sınaq olub.

# "Yuventus"da Alleqriyə əvəzləyici

***"Yuventus"un baş məşqçi postuna daha bir namizəd müəyyənləşib.***

Massimiliano Alleqrini istefaya göndərməyi planlaşdıran turinlilər Antonio Kontenin qayıdışında maraqlıdır.

Klub rəhbərliyi hazırda "Tottenhem"i çalışdıran mütəxəssisin komandanı indiki durumdan çıxaracağına ümid edir. Liderlər qrupundan uzaq düşən "Yuventus" vəziyyətdən çıxış yolunu məşqçi dəyişikliyindən görür.

Qeyd edək ki, Konte 2011-14-cü illərdə "Yuventus"a rəhbərlik edib.